The chamber 17 is filled with liquid 24 for 2/3 of its volume and above it the non-working surface 9 of the rim of the pulley 6 is polished and circular grooves 27 of various widths are located in it (larger on the side of the free edge of the rim and smaller on the side of its pinched edge). Convex U-shaped briquettes are installed in circular grooves 27. The frame for the briquettes is made of sheet solid or perforated copper, in which there are sintered nanoparticles 29. The unclosed ends of the fixed briquettes form between themselves in the annular grooves 27 on top of the pulley rim into diffusers 30, and from below confusers 31.

Band-shoe brake with nanocapillary and liquid cooling system works as follows. When the brake control lever 16 is pressed, the brake band 13 is tightened and the working surfaces 10 of the polymer linings 11 interact with the working surface 8 of the brake pulley 6, which contributes to the generation of heat on their surfaces. At the same time, a significant part of the heat is absorbed by the pulleys 6, which is an accumulator of thermal energy.

<u>The first case</u> is illustrated in Fig. 1*c*, when the liquid 24 does not wash the polished non-working surface 9 of the rim of the brake pulley 6 and its briquettes, and a gap has formed between their surfaces. From the polished non-working surface 9 of the rim of the brake pulley 6, radiant heat transfer is carried out: a radiant flux q_d is supplied from the polished working surface 8 of the rim of the brake pulley 6 and, in accordance with the Stefan-Boltzmann law, the flow of own radiation with a density of $C_dT^4_d$ is diverted directly to the surface of an absolute black body, i.e. liquid 24. In this case, there is also a weak convective heat transfer, since during the rotation of the pulley 6, due to centrifugal forces, liquid drops still fall on the polished non-working surface 9 of the rim of the pulley 6 and into the nanocapillary structure of the briquettes on which they immediately turn into steam. Thus, in this case, it has weak convective-conductive and strong radiant heat trans-

Herald of the Azerbaijan Engineering Academy
2023, vol. 15, no. 2, pp 15-22.
Janahmadov A.Kh et al.

fers, which reduce the energy load of the brake pulley rim.

The second case is shown in Fig. 1 *c*, when the liquid 24 is on the polished non-working surface 9 of the rim of the brake pulley 6 and in its briquettes. In this case, the convective-conductive heat transfer is strong when the liquid layers 24 interact with the polished non-working surface 9 of the pulley rim 6 with their weak radiant heat transfer.

From fig. 1 *c* it follows that the thermal state of the parts of the brake pulley located at different poles in the vertical plane is not the same due to a change in the thermodynamic parameters of the liquid and surrounding air, which contributes to a change in their gradients, and as a result, the intensification of conductive, convective and radiative heat transfer in the proposed nanocapillary liquid cooling system.

When liquid gets between the rings of briquettes (I - II) on the non-working polished surface of the pulley rim, i.e., in the evaporation zone, it heats up and evaporates. Subsequently, due to the created pressure drop between the evaporation and condensation zones (between the rings of briquettes II - III), the liquid from the evaporation zone enters the condensation zone by centrifugal forces arising from the rotation of the pulley. In addition, part of the liquid heat carrier located in the left and right parts of the cooling chamber, respectively, under the free and pinched edges of the pulley rim, depending on its position, circulates in two phases - liquid and gaseous. The ratio of the design parameters of the cooling chamber provides the necessary amount of liquid in the condensation zone to wet the evaporation zone under the action of centrifugal forces. In addition, the separation of drops of condensate moving along the capillary structure of the briquettes under the action of centrifugal forces is prevented.

Thus, when operating in the modes of rotation of the brake pulley or frictional interaction of friction pairs of a band-shoe brake, the following types of heat transfer take place:

- in the first mode - convective air and liquid, conductive, as well as radiant with a working and non-working surface (polished) of the pulley rim; as well as evaporation-condensation heat exchange with nanocapillary structures of briquettes;

- in the second mode - convective, air and liquid, conductive, as well as radiant with a polished non-working surface of the brake pulley rim; in this case, the nanocapillary structure in the briquettes is saturated with liquid (Fig. 1 *d*).

The listed types of heat transfer to an unequal degree affect the energy load of the friction pairs of the drawworks band-shoe brake, and ultimately reduce their energy load, and as a result, the durability of working surfaces.

The discussion of the results

Theoretical and experimental studies of non-uniform nanocapillary and nanofluid cooling of friction pairs of a model tape-shoe brake of a drawworks made it possible to state the following: - at temperatures above 100 °C, an increase in the electrochemical potential and the formation of a system of electronic and ionic zones in the cavity, which contribute to potential jumps, are observed; in this case, the nanofluid acts as an electrolyte; - the use of nanofluid in the cooling system of the composite pulley made it possible to reduce its energy load by 21,8%, wear of friction linings by 19,9%, and increase the braking torque by 13,2%; - according to the principles of non-

equilibrium thermodynamics, the processes of heat generation in friction pairs and the local nature of its removal from the inner surface of the brake pulley rim were studied.

Conclusion

Thus, due to the circulation of the coolant in briquettes with a nanocapillary structure and in the volume of the pulley rim chamber in different phases, its energy load is quasi-levelled, which contributes to the stabilization of the operational parameters of the friction pairs of the brakes, and as a result, a decrease in their wear.

Conflict of Interests

The authors declare there is no conflict of interests related to the publication of this article.

REFERENCES

1. **Rudyak V.Ya., Minakov A.V., Pryazhnikov M.I.** Thermophysical properties of nanofluids and similarity criteria. *Letters to the Journal of Technical Physics.* 2016, V.42, No. 24. Pp. 9 - 16. *(in English)*

2. **Gorshkov A.V.** Ensuring the permissible temperature level of forced marine diesel engines by intensifying heat transfer in cooling systems by modifying heat carriers with nanoparticles: diss. … cand. tech. Sciences: 05.08.06 / Gorshkov Roman Vladimirovich. – Yaroslavl. - 2019. – 27 p. *(in English)*

3. **Rudyak V.Ya.** Statistical aerohydrodynamics of homogeneous and heterogeneous media. T. 2. Hydromechanics. Novosibirsk: NGASU, 2005. 468 p. *(in English)*

4. **Choi, E.S., Brooks, J.S., Eaton, D.L., Al-Haik, M.S., Hussiani, M.Y., Garmestani, H, Li, D., Dahmen, K.** Enhancement of thermal and electrical properties of carbon nanotube polymer composites by magnetic field processing // *Journal of Applied Physics*. 2003 Vol. 94. No. 9. Pp. 6034-6039. *(in English)*

5. **Wang X., Xu X., Choi S.U.S.** Thermal conductivity of nanoparticlefluid mixture. J. Thermophys. Heat Trans. 1999 Vol. 13. No. 4. P. 474 - 480. *(in English)*

6. **Maxwell J. C. A.** treatise on electricity and magnetism. 2nd ed. Oxford: Clarendon Press, 1881. Vol. 1, 435p. *(in English)*

7. **Eastman J. A., Choi S.U.S., Li S., Thompson L. J., Lee S.** Enhanced thermal conductivity through the development of nanofluids. Materials Research Society. Boston: FallMeeting, 1998. Pp. 3–11. *(in English)*

8. **Volchenko, N.** Features of the estimation of the intensity of heat exchange in selfventilated disk-shoe brakes of vehicles / Volchenko, N., Volchenko, A., Volchenko, D., Poliakov P., Malyk V., Zhuravlev D., Vytvytskyi, V., Krasin, P. Eastern-European Journal of Enterprise Technologies. 2019. - 1/5 (97). – Pp. 47-53. *(in English)*

9. Design and verification calculation of friction units of band-shoe brakes of drilling winches: Standard: A.Kh. Janahmadov, D.A. Volchenko, N.A. Volchenko [and others] // Baku: *Apostrophe*. – 311 p. *(in English)*

10. Tribology: friction, wear, lubrication / A.Kh. Janahmadov, A.I. Volchenko, K.T. Nabizade [et al.]. Baku: Apostrof-A, 2019. 640 p. *(in English)*

Causes of Microcracks Silicon Coated in the inside Pipes

E.N. Ibrahimova

Azerbaijan State Oil and Industry University (Azadlig ave. 16/21, Baku, AZ 1010, Azerbaijan)

For correspondence:
Ibrahimova Ellada / e-mail: elladai@inbox.ru

Abstract

Disappointments are seen in pipelines of oil field and oil refining gear working in high temperature, pressure and synthetically dynamic climate after a brief time of activity. Research and testing have shown that silicon-coated pipes' service lives are greatly reduced by defects, including roughness on the inner surface of the pipe, microscopic bubbles, and macro- and microcrack layers. The paper that is being discussed looks at the root causes of these flaws and offers solutions. The research was carried out in "Khazar Pipe Coatings" and "Socar" companies. The quality coating within the pipe and their diagnostic techniques are described in the text.

Keywords: silicon coating, micro- and macrocracks, cooling mode, heating temperature, in-tube diagnostics.

DOI 10.52171/2076-0515_2023_15_02_23 _28

Received *03.10.2022*
Revised *16.06.2023*
Accepted *21.06.2023*

For citation:
Ibrahimova E.N.
[Causes of microcracks silicon coated in the inside pipes]
Herald of the Azerbaijan Engineering Academy, 2023, vol. 15, no. 2, pp. 23-28 *(in Azerbaijani)*

Silisium örtüklü boruların daxilində mikroçatların yaranma səbəbləri

E.N. İbrahimova
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (Azadlıq pr. 16/21, Bakı ş., AZ1010, Azərbaycan)

Yazışma üçün: İbrahimova Ellada / e-mail: elladai@inbox.ru

Xülasə

Yüksək temperatur, təzyiq və kimyəvi aktiv mühitdə işləyən neft-mədən və neft-emalı avadanlıqlarının boru xətlərində qısa istismar müddətindən sonra nasazlıqlar müşahidə olunur. Aparılan tədqiqatlar və eksperimental təcrübələr göstərir ki, silisium örtüklü borularda əsasən qüsurların, borunun daxili səthindəki qeyri-hamarlıqların, xırda qabarcıqların, makro və mikroçat qatlarının olması onların istismar müddətini xeyli azaldır. Təqdim olunan məqalədə bu qüsurların yaranma səbəbləri araşdırılmışdır və onların aradan qaldırılması üçün üsul və metodlar təklif edilmişdir. Tədqiqat "Xəzər Boru Örtükləri" və "Socar" şirkətində aparılmışdur. Məqalədə borunun daxilinə keyfiyyətli örtüyün çəkilməsi və onların diaqnostika üsulları şərh edilmişdir.

Açar sözlər: silisium örtüklər, mikro və makroçatlar, soyuma rejimi, qızma temperaturu, borudaxili diaqnostika.

DOI 10.52171/2076-0515_2023_15_02_23_28

УДК 681.3

Причины появления микротрещин внутри труб с силиконовым покрытием

Э.Н. Ибрагимова
Азербайджанский государственный университет нефти и промышленности (пр. Азадлыг, 16/21, Баку, AZ1010, Азербайджан)

Для переписки: Ибрагимова Эллада / e-mail: elladai@inbox.ru

Аннотация

Отказы наблюдаются в трубопроводах нефтепромыслового и нефтеперерабатывающего оборудования, работающего в условиях высоких температур, давлений и химически активных сред после непродолжительного периода эксплуатации. Проведенные исследования и эксперименты показывают, что наличие дефектов на внутренней поверхности трубы, мелких пузырей, слоев макро- и микротрещин в трубах с силиконовым покрытием значительно снижает срок их службы. В представленной статье рассматриваются причины возникновения этих дефектов и предлагаются пути и средства их устранения. Исследования проводились в компаниях «Khazar Pipe Coatings» и «Socar». В статье описаны покрытия внутри трубы и методы их диагностики.

Ключевые слова: силисиумные покрытия, макро- и микротрещины, режим охлаждения, температура нагрева, внутритрубная диагностика.

Herald of the Azerbaijan Engineering Academy
2023, vol. 15, no. 2, pp. 23-28
Ibrahimova E.N.

Giriş

Borudaxili silisium örtüklər neft-mədən avadanlıqlarının boru xətləri ilə yanaşı, kimya, qida və atom sənayesində tətbiq olunur. Boru xətlərinin daxili səthində intensiv korroziya prosesi nəticəsində müxtəlif çat qatları, qopmalar və çöküntülər əmələ gəlir. Boru kəməri zədələnmə və sızma nəticəsində sıradan çıxdıqda qəza baş verir və nəql olunan məhsulun itkisi ilə yanaşı, ətraf mühitin çirklənməsi də baş verir. Tədqiqatlar zamanı müəyyən olunmuşdur ki, boruların istismarı səviyyəsinin keyfiyyəti 2-4 il ərzində kifayət qədər aşağı düşür. Bu zaman təmirə dayanmaların sayı artmaqla iqtisadi səmərəlilik də aşağı düşür.

Neft sənayesində boruların uzunömürlüyü örtüklərdə yaranan mikro-makro çatların və digər defektlərin vaxtında aşkar olunmasından, diaqnostika prosesinin düzgün aparılmasından asılıdır [1, 2].

İşin məqsədi

Mövzunun aktuallığı onunla izah olunur ki, müasir dövrdə bir çox boru kəmərləri istehsal və istismar zamanı sıradan çıxaraq böyük iqtisadi itgilərlə nəticələnir. Belə hallarda defektləri vaxtından əvvəl aşkar etmək, onların yaranma səbəblərini müəyyən etmək və aradan qaldırmaq elmi tədqiqat işinin əsas məqsədidir. Qarşıya qoyulan məsələlərin həlli ilə yanaşı, uyğun diaqnostika üsulunun seçilməsi məqsədə uyğundur.

Məsələnin qoyuluşu

Praktiki və nəzəri tədqiqatlardan məlumdur ki, silisium örtüklü borularda makro və mikroçatların yaranma səbəbi aşağıdakılarıdır [1-6].

Borunun istehsalı zamanı seçilən materialın keyfiyyətsiz olması; Borunun daxilinə örtük çəkilmə texnoloji prosesinin düzgün aparılmaması; Yüksək temperatur (600-800°C) mühitindən otaq temperaturuna qədər soyudulma zamanı yaranan termiki gərginliklər; Örtüklərdə yaranan mikroçatların diaqnostika üsulunun düzgün seçilməməsi; Borunun istismarı zamanı ətraf mühitin (yüksək təzyiq və temperaturun) təsiri.

Silsium emal örtüklərin materialları əsasən ГОСТ Р 51164-98, СНиП 2.05.06-85, РД 153-34.0 20.158-2003 tələblərinə uyğun seçilir.

Boruların daxilinə örtük çəkmək üçün texnoloji rejimin parametrlərinə (n – borunun fırlanma sürəti, V – irəliləmə sürəti, D – borunun diametri) müəyyən intervalda olması tənzimlənməlidir ki, istehsala keyfiyyətli örtüklər təhvil verilsin [3].

Boru müəyyən fırlanma və irəliləmə hərəkəti ilə təyin edilmiş sürətlərlə sobaya daxil olur və örtük çəkilir. Göstərilən texnoloji parametrlərin qiymətlərinə düzgün tənzi-mləmədikdə borunun daxilinə keyfiyyətsiz örtük çəkilir və müəyyən müddətdən sonra sıradan çıxır.

Sobadan çıxdıqdan sonra havada və süni soyutma kamerası ilə 600–800°C-dən otaq temperaturuna qədər soyudulur. Bu zaman soyutma rejiminin dəqiq riayət olunması vacib məsələlərdən biridir. Əks halda örtüyün səthində boruların həndəsi ölçülərindən asılı olaraq makro-mikro çatlar və qabarmalar yaranaraq örtüyü yararsız vəziyyətə sala bilər. Məlumdur ki, xüsusi kövrəkliyə malik olan silisium örtüklü borular xüsusi rejimlə soyudulmalıdır. Bu problemi aradana qaldırmaq üçün

25 dəq ərzində hər dəfə örtüyün səthinin temperaturunu 5-10°C salmaqla otaq temperaturuna qədər soyuma prosesinə nail olmaq olar [2, 3].

Silisium örtüklü boruların diaqnostikası zamanı defektoskop əsasən borunun və örtüyün materialına uyğun seçilir. Borudaxili silisium örtüklər əsasən elektroqığılcım defektoskopu ilə aparılır. Praktiki və nəzəri məlumatlara istinad edərək örtüklərdə yaranan defektləri elektroqığılcım defektoskopu ilə dəqiq müəyyən etmək olar.

Silisium örtüklər ətraf mühitin temperaturu $-60^0 \div 350^\circ$C intervalında və təzyiqi 10 Mpa qədər olduqda tədbiq oluna bilər. Əks halda örtüyün daxilində defektlər yaranır.

Məsələnin həlli

"Xəzər boru örtükləri" və "Socar" şirkətində boruların daxilində baş verən qüsurların və çatların diaqnostikasının statistik analizi aparılmışdır. Göstərilən şirkətlərdən diaqnostika zamanı alınan informasiyaların nəticəsində çatların yaranma səbəbləri təhlil olunmuşdur. Belə ki, çatların dərinliyi borunun divarının qalınlığının 15 %-ni təşkil etdiyi hallarda qüsurlu borular kimi qəbul edilib, əsaslı təmirə göndərilməsi məqsədəuyğun hesab edilir. Örtüklü borularda qüsurların tam azalması üçün aşağıdakı şərtlərə riayət olunmalıdır [3–6].

Boru daxilində qüsurların və çatların azalması üçün avtomatlaşdırma texnogiyasının işlənməsi; Normativ sənədlərə riayət edilməməsi və tələblərin tam yerinə yetirilməməsi, çatların sayının artmasına gətirib çıxardır; Qüsurların və çatların baş verməməsinin metodik interpretasiya və onun proqramının olmaması və tətbiq edilməməsi; Çatların yaranmamasının statistik-eksperimental təhlilinin və onun lazımı hesabatlarının olmaması boru daxili səthinin sıradan çıxması.

Aşağıdakı cədvəl 1-də 2018-2021-ci illərdə tədqiqat aparılan şirkətlərdə yaranan qüsurların və çatların sayının miqdarı göstərilmişdir.

Cədvəl 1 – Boru daxilində çatların miqdarı
Table 1 – The amount of cracks inside the pipe

Diaqnostikanın aparıldığı il	Hesabatda aşkar olunmayan çatlar və qüsurlar sayı	Hesabatda aşkar olunan çatlar və qüsurlar sayı	Çatların yaranma ehtimalı
2018	928	281	6
2019	1792	11	26
2020	2698	1245	277
2021	136	66	25
Cəmi	5554 (74,14 %)	1603 (21,40 %)	334 (4,46 %)

Çatların borunun daxilinə nüfuz etmə dərinliyi şəkildə göstərilmişdir. Burada çatların dərinlik boyunca paylanması göstərilmişdir ki, onların 94.6 %-inin dərinliyi borunun divarının qalınlığının 15 % qədərini, lakin 146 çatın (5.4 %) dərinliyinin isə borunun divarının 15 %-dən çoxunu təşkil etdiyi qeydə alınmışdır. Həmçinin 67 təhlükəli defektlərin 20 % dərinlikdə olduğu müəyyən olunmuşdur.

ГОСТ-55999-2014 standartına görə "Boru daxili örtüklərində çatların diaqnostikası"-na uyğun tələblərə əsasən göstərilən şirkətlərdə diaqnostika aparılmışdır [3, 4]. Bu tələblərə əsasən örtüklərin səthində yaranan çat qatlarının növləri, yerləşdiyi koordinatları və həndəsi formaları göstərilməlidir.



Şəkil – Mikroçatların borunun dərinliyinə nüfüzetmə dərinliyi
Figure – The prospective depth of microcracs inside the pipe

Cədvəl 2 – Xəzər boru örtükləri (CPC), "Socar" və "Total France" boru şirkətlərində örtüklərdə yaranan çatların təhlili
Table 2 – Analysis of the coverings' developing fractures in Caspian Pipe Coating (CPC), "Socar" and "Total France" pipe company

Boruların ölçüləri, mm	Çatların istiqamətinin dəyişməsi	Çatların həndəsi ölçüləri, mkm			Çatların koordinatları		Keyfiyyətsiz boru örtüyünün %-lə miqdarı	Keyfiyyətli boru örtüyünün % -lə miqdarı
		L	*h*	*S*	*l*, mm	*φ*, ^{0}		
Ø300x20	En kəsik	560	740	150	1550	32	6.51	1.8
Ø400x25	Ox boyu	720	980	240	3740	48	7.23	2.5
Ø500x30	En kəsik ixtiyarı	1120	1600	425	4870	55	5.12	3.2
Ø600x35	Ox boyu ixtiyarı	1820	2580	680	6720	112	8.14	4.3
Ø800x40	En kəsik ixtiyarı	2720	3500	870	4240	270	9.75	5.1

Burada, L – çatların uzunluğu, h – dərinliyi, S – örtüyün çatların qalınlığı, l – çatların arasındakı məsafəsi, φ – en kəsiyin dönmə bucağıdır.

Cədvəl 2-ə uyğun olaraq, müxtəlif şirkətlərdə aparılan müşahidə nəticəsində metroloji ölçmələrin parametrlərinin diaqnostik təhlili təqdim edilmişdir.

Cədvəldə keyfiyyətsiz boru örtüyünün faizlə miqdarı boru daxilində mikro-makro çatları və defektləri yaradan səbəblər aradan qaldırılmadan diaqnostikanın nəticəsi demək-dir. Belə ki, 100 borudan 6-9%-i istismara yararsız olur.

Nəticə

Apardığımız tədqiqatda borundaxili silisium örtüklərdə mikro-makro çatların yaranmasına səbəb olan problemlər aradan qaldırıldıqda keyfiyyətsiz borunun faizlə miqdarı aşağı düşür.

Təcrübə zamanı götürülmüş 100 ədəd sınaq borusundan 1-5 % keyfiyyətsiz ola bilər. Bu borular sənayeyə təhvil verilən zaman onların istismar mudəti 5 ildən 10 ilə qədər artır. Çünki, borunun daxilinə örtük çəkilməsi zamanı texnoloji rejimi düzgün riayət olunur və soyuma rejimi təqdim olunun intervalla soyudularaq yararsız boruların sayı 2 dəfə azalır.

Maraqlar münaqişəsi

Müəllif bu məqalədə araşdırılması tələb olunan maraqlar münaqişəsinin olmadığını qeyd edir.

REFERENCES

1. **İbrahimova E.N.** Boruların silisium örtüklərində yaranan çatların diaqnostikası. *Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri*, 2017. cild 9, №14, s.65-68 *(in Azerbaijani)*
2. **Ibrahimova E.N**. Silisium boru örtüyündə soyutma zamanı yaranan termiki gərginlik rejiminin tənzimlənməsi. *Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri*, 2021, cild 13, №1, s. 62-65 *(in Azerbaijani)*
3. **Ibragimov N.Yu., Ibragimova E.N.** Aparatus for identifying microcracks on the inner surface of glazed pipes. *Glass and Ceramics*, 2018, v.75, pp. 272-274 *(in English)*
4. **Vasilin V.A., Ivashov E.N., Stepanchikov S.V.** Avtomatizaciya naneseniya tonkoplyonochnyh pokrytij v sovremennyh vakuumnyh tekhnologiyah. *Avtomatizaciya i sovremennaya tekhnologiya*, 2011, №7, s. 19-24 *(in Russian)*
5. **Ilyes B.K., Laurent G., Daniel C., Daniel R.** Structure and properties of lead silicate glasses and melts. *Chemical Geology*, 2017, v. 461, pp.104-114 *(in English)*
6. **Larosche C.J.** Types and causes of cracking in concrete structure. *Failure, Distress and repair of concrete structures*. 2009, pp. 57-83 *(in English)*

The Analysis of Information Processing Methods to Assess Reliability of Machines and Equipment

H.V. Gafarzada[1], A.M. Gafarov[2], I.A. Khankishiyev[2]

[1] *Azerbaijan State University of Oil and Industry (Azadlig ave., 16/21, Baku, AZ1010, Azerbaijan)*
[2] *Azerbaijan State Marine Academy (Z. Aliyeva str., 18, Baku, AZ1000, Azerbaijan)*

For correspondence:
Gafarov Aydin / e-mail: aydin.qafarov@hotmail.com

Abstract

In the article, the issues of analysis of the methods of processing the results of the studies conducted for the evaluation of reliability parameters of machines and equipment were considered. For this purpose, the possibility of applying the basic principles and laws of Probability Theory and Mathematical Statistics was investigated.

Keywords: machines, equipment, detail, reliability, experiment, result, processing, theory of probability, mathematical statistics, evaluation.

DOI 10.52171/2076-0515_2023_15_02_29_41

Received *19.10.2022*
Revised *19.06.2023*
Accepted *21.06.2023*

For citation:
Gafarzada H.V., Gafarov A.M., Khankishiyev I.A.
[The analysis of information processing methods to assess reliability of machines and equipment]
Herald of the Azerbaijan Engineering Academy, 2023, vol. 15, no. 2, pp. 29-41 *(in Azerbaijani)*

Maşın və avadanlıqların etibarlılığını qiymətləndirmək üçün informasiyanın emalı metodlarının təhlili

H.V. Qafarzadə[1], A.M. Qafarov[2], İ.A. Xankişiyev[2]

[1]*Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (Azadlıq pr., 16/21, Bakı ş., AZ1010, Azərbaycan),*
[2]*Azərbaycan Dövlət Dəniz Akademiyası (Z. Əliyeva 18, Bakı ş., AZ1000, Azərbaycan)*

Yazışma üçün:
Qafarov Aydın / e-mail: aydin.qafarov@hotmail.com

Xülasə

Məqalədə, maşın və avadanlıqların etibarlılıq parametrlərinin qiymətləndirilməsi üçün aparılan tədqiqatların nəticələrinin emalı metodlarının analizi məsələlərinə baxılmışdır. Bu məqsədlə Ehtimal nəzəriyyəsinin və Riyazi statistikanın əsas prinsiplərinin və qanunlarının tətbiqi mümkünlüyü araşdırılmışdır.

Açar sözlər: maşın, avadanlıq, detal, etibarlılıq, eksperiment, nəticə, emal, ehtimal nəzəriyyəsi, riyazi statistika, qiymətləndirmə.

DOI 10.52171/2076-0515_2023_15_02_29-41

УДК 621.81; 519.23/25

Анализ методов обработки информации для оценки надежности машин и оборудований

Х.В. Гафарзаде[1], А.М. Гафаров[2], И.А. Ханкишиев[2]

[1]*Азербайджанский государственный университет нефти и промышленности (пр. Азадлыг, 16/21, г. Баку, AZ1010, Азербайджан)*
[2]*Азербайджанская государственная морская академия (З.Алиева, 18, г. Баку, AZ1000, Азербайджан)*

Для переписки: Гафаров Айдын / e-mail: aydin.qafarov@hotmail.com

Аннотация

В статье рассматриваются вопросы анализа методов обработки результатов исследований для оценки параметров надежности машин и оборудований. Обсуждаются возможности использования основных принципов и закономерностей Теории вероятностей и Математической статистики.

Ключевые слова: машины, оборудования, деталь, надежность, эксперимент, результат, обработка, теория вероятности, математическая статистика, оценка.

Giriş

Aydındır ki, maşın və avadanlıqalrın etibarlılığı və uzunömürlülüyü, onları təşkil edən ayrı-ayrı detallardan asılıdır. Maşın avadanlıqlarının detallarının hər birinin həqiqi ölçüləri müəyyən növ xətalarla xarakterizə olunurlar. Bu xətaların hamısı, növündən asılı olmayaraq təsadüfi kəmiyyətlərdir. Onlara, sistematik, sistematik qanuna uyğun, mütləq, nisbi, gətirilmə, statiki, dinamiki, multiplikativ, additiv, təsadüfi və digər xətaları misal göstərmək olar.

Təsadüfi xətalardan başqa, yuxarıda göstərilən xətaların tam əksəriyyətini, bu və ya digər texniki-texnoloji tədbirləri həyata keçirməklə tam, yaxud qismən aradan qaldırmaq olar.

Təsadüfi xətaları isə adi üsullarla müəyyənləşdirmək və yaxud əvəz etmək kifayət qədər mürəkkəb və çətin məsələdir. Belə ki, onlar bir-biri ilə əlaqəsi olmayan çoxlu sayda təsadüfi faktorların təsirindən yaranırlar.

Buna görə də emal edilən detalların dəqiqlik və keyfiyyət göstəricilərinin müxtəlif faktorların təsirindən dəyişməsini, Ehtimal nəzəriyyəsinin və Riyazi statistikanın əsas müddəaları əsasında öyrənilməsi mümkünlüyü çox aktual və vacib məsələlərdən biridir.

Tədqiqatın məqsədi gəmi maşın və avadanlıqlarının detallarının əsas parametr-lərinin etibarlılıq göstəricilərinin eksperi-mental tədqiqatlar vasitəsi ilə təyin edilməsi prosesində, Ehtimal nəzəriyyəsinin və Riyazi statistika metodlarının tətbiqi mümkün-lüyünün araşdırılmasıdır.

Məsələnin qoyuluşu və həlli

Məlumdur ki, gəmi maşın və avadanlıqlarının detallarının dəqiqlik və keyfiyyət göstəriciləri, onların hazırlanması prosesində yaranan xətalarla əlaqəli olan təsadüfi kəmiyyətlərdir. Təsadüfi kəmiyyətlər, diskret və fasiləsiz kəmiyyətlərə ayrılır. Təsadüfi kəmiyyətlər o kəmiyyətlərə deyilir ki, onların qiymətləri təcrübədən-təcrübəyə, təsadüfi olaraq dəyişir.

Əgər təsadüfi kəmiyyət, yalnız son, yaxud hesablanmış qiymətlər çoxluğunu ala bilirsə, diskret, qapalı yaxud açıq (o cümlədən sonsuz) intervalda istənilən qiyməti ala bilirsə, fasiləsiz adlanır.

Eksperimental tədqiqatların nəticələrinin emalı, yəni detalların dəqiqlik və keyfiyyət göstəricilərinin təyin edilməsi aşağıdakı ardıcıllıqla yerinə yetirilir [1–10].

Tədqiqatlar aparılarkən təcrübələrin nəticələri (təsadüfi kəmiyyətlərin qiymətləri) müəyyən artma ardıcıllığı ilə düzülür:

$$x_1 < x_2 < x_3, \dots, < x_n.$$

Sonrakı mərhələdə təsadüfi kəmiyyətlə, onun ehtimalı arasında əlaqəni əks etdirən cədvəl qurulur (cədvəl 1).

Cədvəlin qurulması üçün x_i-nin eyni qiymətlərinin sayı m müəyyənləşdirilir və $P_i = m_i / n$ ehtimalı təyin edilir. Burada n - təcrübə nəticəsində alınan qiymətlərin ümumi sayı, k dərəcələrin sayıdır. Əgər təcrübə zamanı alınan nəticələrin fərqli qiymətlərinin sayı 15-20-dən artıq olarsa, onda onları qruplaşdırmaq və müəyyən sayda dərəcələrə gətirmək lazımdır. Bütün dərəcələrin eni qiymətcə bərabər olmalıdır.

Cədvəl 1 – Eyni və fərqli qiymətlərə malik ölçmə nəticələrinin yerləşməsi ehtimalı
Table 1 – Probability of location of measurement results with the same and different values

x_i	x_1	x_2	x_3	...	x_k	Yoxlama
m_i	m_1	m_2	m_3	...	m_k	$\sum_{i=1}^{k} m_i = n$
$P_i = \frac{m_i}{n}$	P_1	P_2	P_3	...	P_k	Yoxlama $\sum_{i=1}^{k} P_i = 1$

Dərəcələrin sistemləşdirilməsi üçün aşağıdakı ardıcıllıqdan istifadə edilir:

- təsadüfi kəmiyyətin ən böyük (X_{max}) və ən kiçik (X_{min}) qiymətləri təyin edilir. $R = X_{max} - X_{min}$ asılılığından, təsadüfi kəmiyyətin vüsəti (təsadüfi kəmiyyətin paylanma diapazonu) R müəyyənləşdirilir;

- dərəcələrin sayı k müəyyən sayda ölçmələrlə verilir. Onlar, təkrəqəmli olmalıdırlar. Ölçmələrin ümumi sayı $n > 100$ olduqda, $k = 9 - 15$, $n < 100$ olduqda isə $k = 7$ qəbul edilir;

- dərəcənin eni $h = {}^{R}/_{k}$ ilə təyin edilir. Hesabatları sadələşdirmək üçün k-nın alınmış qiymətini istənilən tərəfə yuvarlaqlaşdırmaq olar;

- dərəcələrin sərhədləri təyin edilir və hər bir dərəcə üçün ölçmələrin sayı hesablanır. Dərəcələrin sərhəddində yerləşən X-in qiymətini hesablayarkən, onu həmişə eyni dərəcəyə (məsələn, X-in ilk dəfə rast gəlindiyi, yəni yuxarı sərhəddi olduğu dərəcəyə) aid etmək lazımdır.

- hər bir dərəcə üçün onun ehtimalı təyin olunur va paylanmaların sırası qeyd edilir (cədvəl 2). Burada $x_1 = x_{min}$, $x_{k+1} = x_{max}$, k_i- dərəcədir.

Dərəcələrə gətirilmiş təsadüfi kəmiyyətləri qrafiki formada təqdim etmək üçün qistoqrammalar qurulur.

Qistoqrammaları qurmaq üçün bir sıra əməliyyatları yerinə yetirmək lazımdır. Bunun üçün $y_i = {}^{P_i}/_{h}$ ordinatının qiyməti müəyyənləşdirilməlidir. Burada P_i -təsadüfi kəmiyyətin i dərəcəsində meydana çıxma ehtimalı; h - hər bir dərəcənin enidir.

Cədvəl 2 – Hər bir dərəcə üçün ölçmələrin nəticələrinin yerləşmə ehtimalı və paylanma sırası
Table 2 – Probability of location and order of distribution of measurement results for each degree

k_i	$x_1 \div x_2$	$x_2 \div x_3$	...	$x_k \div x_{k+1}$	Yoxlama
h_i	h_2	h_3	...	h_k	$\sum_{i=1}^{k} m_i = n$
m_i	m_1	m_2	...	m_k	Yoxlama
$P_i = {}^{m_i}/_{n}$	$P_1 = {}^{m_1}/_{n}$	$P_2 = {}^{m_2}/_{n}$	...	$P_k = {}^{m_k}/_{n}$	$\sum_{i=1}^{k} P_i = 1$

$y = f(x)$ koordinat sistemində h dərəcəsinin eninə uyğun, y_i hündürlüyünün qiyməti yerləşdirilir və elementar düzbucaqlılar qurulur (şəkil 1). Sonra isə hər bir elementar düzbucaqlının sahəsi s_i hesablanır.

$$s_i = hy_i = h\frac{P_i}{h} = P_i. \quad (1)$$

Qistoqrammanın ümumi sahəsinin S, ayrı-ayrı elementar düzbucaqlıların sahələrinin cəmindən ibarət olduğunu nəzərə alsaq, yaza bilərik:

$$S = \sum_{i=1}^{k} s_i = \sum_{i=1}^{k} P_i = 1. \quad (2)$$

(2) ifadəsindən aydın olur ki, qistoqramma ilə məhdudlaşan sahə vahidə bərabərdir.



Şəkil 1 – Paylanmanın qistoqrammı
Figure 1 – Histogram of the distribution

Təcrübələrin nəticələrinin analizində təsadüfi kəmiyyətlərin paylanma funksiyasının tipi, qistoqrammanın xarici görünüşünə və yaxud appoksimasiyaedici (ifadəedici) əyriyə görə təyin edilir.

Əgər X təsadüfi kəmiyyətinin, x_i-nin hər hansı bir qiymətindən kiçik, yaxud ona bərabər olduğu ehtimalını $P\,(X \le x_i)$ ilə işarə etsək, onda $P\,(X \le x)$ ehtimalının x -in qiymətinin yüksəlməsi ilə artmasını göstərən asılılıq, paylanmanın funksiyası olacaqdır. Paylanma funksiyası $F(x) = P(X \le x)$ ilə işarə edilir.

Paylanma funksiyasının:
$F(x)$, $P(X \le x)$ ehtimalına bərabər olduğunu və ehtimalın sıfırdan vahidə qədər dəyişə bilmə mümkünlüyünü nəzərə alsaq, onda paylanma funksiyasının da sıfırdan vahidə qədər dəyişə biləcəyini qəbul edə bilərik.

$$0 \le F(x) \le 1. \quad (3)$$

Yuxarıda göstərilənləri nəzərə alsaq, yaza bilərik:

$$P\,(X \le x) = \sum_{x_i \le x} P(X = x_i) = \sum_{x_i \le x} P_i\,, \quad (4)$$

$$F(x) = \sum_{x_i \le x} P_i\,. \quad (5)$$

və yaxud:

$$F(x) = P_1 + P_2 + P_3 + \cdots + P_m. \quad (6)$$

Burada m, X-dən sağda yerləşməyən x_i nöqtələrinin sayıdır.

Paylanma funksiyası aşağıdakı qayda üzrə qurulur [3]:

- $F(x)$ və x müstəvi koordinat sistemində x_1 və $F(x_1) = P_1$ nöqtələri qeyd edilir (şəkil 2 a);
- qeyd edilmiş nöqtədən x oxunu kəsənə qədər perpendikulyar düz xətt endirilir və ondan da x_2-dən qalxmış perpendikulyarı kəsənə qədər horizontal xətt çəkilir;
- x_2-dən qalxmış perpendikulyarın üzərinə $F(x_2) = P_1 + P_2$ yerləşdirilir;
- x_2 və $F(x_2)$koordinatlı nöqtədən sağ tərəfə xətt çəkilir və beləliklə proses davam etdirilir.





b)

Şəkil 2 – Paylanma funksiyasının qurulması
Figure 2 – Construction of the distribution function

Qurulmuş qrafik paylanmanın funksiyası adlanır. Qrafikdən görünür ki, səpələnmənin funksiyası sıçrayışlarla dəyişir.

Sıçrayışın x_i nöqtəsindəki qiyməti, bu qiymətin meydana çıxma ehtimalına P_i bərabərdir. Alınmış paylanma funksiyası azalan deyil. Bu funksiya, arta bilən, yaxud öz qiymətini dəyişməyən funksiyadır.

Tutaq ki, $F(x)$ funksiyası verilmişdir və x-in qiymətinin $a < x < b$ intervalında olması ehtimalının müəyyənləşdirilməsi tələb edilir, yəni $P(a < x < b)$ - ni təyin etmək lazımdır.

Qeyd olunduğu kimi $P(x < a) = F(a)$.

Şəkil 2, b-dən aydın görünür ki,

$$P(a < x < b) = P(x < b) - P(x < a) \quad (7)$$

(7) ifadəsini aşağıdakı şəkildə yazmaq olar

$$P(a < x < b) = F(b) - F(a \quad (8)$$

Buradan aydın olur ki, təsadüfi kəmiyyətin verilmiş intervalda meydana çıxma ehtimalı, həmin interval sərhəddində paylanma funksiyasının qiymətlərinin fərqinə bərabərdir.

Paylanma funksiyası ilə qistoqramma arasında əlaqəyə baxaq. Paylanma funksiyasının tərifindən aydındır ki,

$$F_1(x) - F_0(x) = P_1;\ F_2(x) - F_1(x) = P_2;\ F_3(x) - F_2(x) = P_3; \dots;$$

$$F_i(x) - F_{i-1}(x) = P_i.$$

Funksiyaları aşağıdakı kimi də yaza bilərik:

$$F_1(x) - F_0(x) = \Delta F_1(x);\ F_2(x) - F_1(x) = \Delta F_2(x);\ F_3(x) - F_2(x) = = \Delta F_3(x);\ F_i(x) - F_{i-1}(x) = \Delta F_i(x).$$

Burada $\Delta F(x)$ paylanma funksiyasının artımıdır.

Məlum olduğu kimi qistoqrammanın ordinatları aşağıdakı kimi yazıla bilər:

$$y_1 = \frac{P_1}{h_1};\ y_2 = \frac{P_2}{h_2};\ y_3 = \frac{P_3}{h_3}; \dots; y_i = \frac{P_i}{h_i}.$$

Buradan,

$$h_1 = x_2 - x_1 = \Delta x_1;\ h_2 = x_3 - x_2 = \Delta x_2;\ h_3 = x_4 - x_3 = \Delta x_3\ ; \dots;$$

$$h_i = x_{i+1} - x_i = \Delta x_i\ ,$$

Δx_i - təsadüfi kəmiyyətin artımıdır.

Qistoqrammanın ordinatının ifadəsinə P və h üçün alınmış qiymətləri qoysaq, alarıq:

$$y_1 = \frac{\Delta F_1(x)}{\Delta x_1}; \quad y_2 = \frac{\Delta F_2(x)}{\Delta x_2};$$
$$y_3 = \frac{\Delta F_3(x)}{\Delta x_3}; \ \ldots; \ y_i = \frac{\Delta F_i(x)}{\Delta x_i};$$

$$y = \frac{\Delta F(x)}{\Delta x} \tag{9}$$

(9) ifadəsindən aydın olur ki, qistoqrammanın ordinatı, paylanma funksiyasının artımının təsadüfi kəmiyyətin artımına nisbətinə bərabərdir.

Əvvəlki hesabatlardan məlumdur ki, dərəcələrin sayı k, vüsətin R intervalın eninə h nisbətinə bərabərdir.

$$k = \frac{R}{h} = \frac{R}{\Delta x} \tag{10}$$

Δx-in azalması, dərəcələrin sayının artması ilə eyni qiymətlidir.

(9) və (10) ifadələrindən belə nəticəyə gəlmək olar ki, dərəcələrin sayının artması, yaxud Δx-in qiymətinin azalması qistoqrammanın hamarlanması ilə nəticələnir və qistoqrammanın sahəsi dəyişmədikdə paylanma funksiyası $F(x)$ vahidə bərabər olur.

Fasiləsiz təsadüfi kəmiyyətlər üçün $\Delta x \to 0$ olduqda qistoqramma və paylanma funksiyası hamar əyrilər şəklini alınır. Bu halda da hamar əyrilərlə verilmiş qistoqrammanın sahəsi əvəlki kimi vahidə bərabər olur.

Qistoqrammanın ordinatı:
$y = \Delta F(x)/\Delta x$, $\Delta x \to 0$ vəziyyətində aşağıdakı şəkildə yazılır:

$$y = \lim_{\Delta x \to 0} \frac{\Delta F(x)}{\Delta x} = \frac{dF(x)}{dx} \tag{11}$$

və paylanma funksiyasının $F(x)$, x kəmiyyətinə görə törəməsinə çevrilir.

Paylanma funksiyasının x dəyişəninə görə törəməsi paylanmanın sıxlığı, onun qrafiki isə paylanmanın əyrisi adlanır və aşağıdakı kimi yazılır:

$$\frac{dF(x)}{dx} = f(x). \tag{12}$$

İnteqral hesablanmalarından məlumdur ki, $f(x)$ paylanma əyrisi daxilində olan S sahəsi:

$$\int_A^B f(x)dx$$

Burada A və B x-in ən kiçik və ən böyük qiymətləridir.

Digər tərəfdən, məlum olduğu kimi bu sahə vahidə bərabər götürülür. Deməli,

$$\int_A^B f(x)dx = 1. \tag{13}$$

(13) bərabərliyi, paylanma əyrisinin təmin etməli olduğu əsas şərtdir.

Təcrübələrin nəticələrinin analizində təsadüfi kəmiyyətlərin paylanma funksiyasının tipinin, qistoqrammanın xarici görünüşünə və yaxud appaksimasiya edici (ifadə edici) əyriyə görə təyin edilməsinə aşağıdakı misalda baxaq.

Tutaq ki, gəmi braşpillərinin yük valının faktiki ölçüləri emaldan sonra 50,00 mm-dən 50,35 mm arasında dəyişir. Bu ölçülərin paylanması, intervallarına görə cədvəl 3-ə daxil edilir.

Cədvəl 3-də verilmiş qiymətlərə görə qrafik qurulur (şəkil 3).

Absis oxu üzərində ölçülər, ordinat oxu üzərində isə uyğun tezliklər və tezlik göstəriciləri yerləşdirilir.

Cədvəl 3 – Yük valının ölçülərinin paylanması
Table 3 – Distribution of load shaft dimensions

Ölçülərin intervalı, mm	Tezlik , m	Tezlik göstəricisi m/n
$50{,}00 - 50{,}05$	2	0,02
$50{,}05 - 50{,}10$	12	0,12
$50{,}10 - 50{,}15$	18	0,18
$50{,}15 - 50{,}20$	27	0,27
$50{,}20 - 50{,}25$	24	0,24
$50{,}25 - 50{,}30$	14	0,14
$50{,}30 - 50{,}35$	3	0,03
	$\sum m = 100$	$\sum \frac{m}{n} = 1$



Şəkil 3 – Detalların faktiki ölçülərinin paylanması: 1 - paylanmanın qistoqramı; 2 - paylanmanın poliqonu
Figure 3 – Distribution of actual dimensions of details: 1- histogram of distribution; 2 - polygon of distribution

Detalların dəqiqliyinə bir-birindən asılı olmayan çoxlu sayda müxtəlif faktorlar təsir etdikdə, adətən Normal paylanma qanununda istifadə etmək məqsədə müvafiq olur. Eyni zamanda qurulmuş qrafik xarakterinə görə daha çox Normal paylanma qanununun əyrisinə yaxındır.

Paylanma qrafikləri ilkin olaraq, orta hesabi qiymət l_{or} və orta kvadratik sapma σ ilə xarakterizə oluna bilirlər.

Detalların orta hesabi qiyməti aşağıdakı düsturla təyin edilir:

$$l_{or} = \frac{l_1 + l_2 + l_3 + \cdots + l_n}{n} = \frac{1}{n}\sum_{i=1}^{n} l_i \,. \quad (14)$$

Burada l_i - ayrı-ayrı detalların ölçüləri, n- ölçülən detalların ümumi sayıdır.

Orta kvadratik sapma σ aşağıdakı ifadədən təyin edilir:

$$\sigma = \sqrt{\frac{x_1^2 + x_2^2 + x_3^2 + \cdots + x_n^2}{n}} = \sqrt{\frac{\sum_{i=1}^{n} x_i^2}{n}}\,, \quad (15)$$

$$x_i = l_i - l_{or}\,.$$

Cədvəl 3-də və şəkil 3-də verilmiş qiymətlərdən, həmçinin (14) və (15) düsturlarından istifadə edərək orta hesabi qiyməti l_{or} və orta kvadratik sapma σ təyin edilir.

$$l_{or} = 50{,}18; \;\; \sigma = 0{,}12; \;\; 3\sigma = 3 \cdot 0{,}12 = 036\,.$$

l_{or} , X və σ –nın təyin edilmiş parametrlərindən istifadə etməklə R-in, y-in, y_{max}-un, y_A və y_B -nin, həmçinin $\int_{-\infty}^{+\infty} ydx$-in qiymətlərini hesablamaq olar.

Normal paylanma qanununun nəzəri əyriləri şəkil 4 və 5-də verilmişdir.

Detalların ən böyük və ən kiçik həqiqi ölçülərinin fərqi paylanma diapazonu R adlanır.

$$R = l_{max} - l_{min}\,.$$



Şəkil 4 – Normal paylanma qanununun (Qaus qanununun) əyrisi
Figure 4 – Normal distribution law (Gauss's law) curve



Şəkil 5 – Orta kvadratik sapmanın σ Normal paylanma qanununun əyrisinin formasına təsiri
Figure 5 – The influence of mean square deviation σ on the shape of the curve of the normal distribution law

Qaus əyrisi aşağıdakı ifadə ilə yazılır:

$$y = \frac{1}{\sigma\sqrt{2\pi}} e^{\frac{-x^2}{2\sigma^2}}, \qquad (16)$$

burada e- natural loqarifmanın əsasıdır.

$$y_{max} = \frac{1}{\sigma\sqrt{2\pi}} \approx \frac{0{,}4}{\sigma}.$$

Qaus əyrisi A və B nöqtələrində əyilməyə malikdir.

$$y_A = y_B = \frac{1}{\sigma\sqrt{2\pi e}} = \frac{y_{max}}{\sqrt{e}} \approx 0{,}6 y_{max} = \\ = \frac{0{,}24}{\sigma}. \qquad (17)$$

Qaus əyrisi ilə əhatə olunmuş sahə aşağıdakı inteqraldan təyin edilir:

$$\int_{-\infty}^{+\infty} y dx = \frac{1}{\sigma\sqrt{2\pi}} \int_{-\infty}^{+\infty} e^{-\frac{x^2}{2\sigma^2}} dx = \\ = \frac{2}{\sigma\sqrt{2\pi}} \int_{0}^{+\infty} e^{-\frac{x^2}{2\sigma^2}} dx = 1. \qquad (18)$$

Normal paylanmış təsadüfi kəmiyyət üçün riyazi gözləmədən σ məsafədə olan nöqtələrlə məhdudlaşan intervalın sərhəddinə düşmə ehtimalı 0,6813, $M(x) - 2\sigma$ dan $M(x) + 2\sigma$ intervalına qədər 0,9544, $M(x) - 3\sigma$ dan $M(x) + 3\sigma$ intervalına qədər 0,9973 olur, yəni 99,73% ehtimalı ilə hesab etmək olar ki,

$$M(x) - 3\sigma \le x \le M(x) + 3\sigma.$$

Bu ifadə emal edilmiş yük valının kifayət qədər yüksək dəqiqliklə ($0{,}36\sigma < 3\sigma$-dan) hazırlandığını təsdiq edir.

Eksperimental tədqiqatlar apararkən digər paylanma qanunlarından da istifadə etmək olar.

Bunlara misal olaraq, Bərabər ehtimal (şəkil 6), Simpson (şək. 7), Maksvel (şəkil 8), Kəsik normal (şək. 9), Reley (şəkil 10), Veybulla (şək. 11) paylanmalarını göstərmək olar.

Aşağıda verilmiş paylanma qanunlarının nəzəri əyrilərinin (şəkil 4-11), təcrübələr nəticəsində alınmış əyrilərin (şəkil 12-15), [4] analizində istifadə etmə mümkünlüyünə də baxaq.



Şəkil 6 – Ölçülərin bərabər ehtimal qanununa görə paylanması
Figure 6 – Distribution of sizes according to the law of equal probability



Şəkil 7 – Ölçülərin Simpson qanununa görə paylanması
Figure 7 – Size distribution according to Simpson's law



Şəkil 8 – Ölçülərin Maksvel qanununa görə paylanması
Figure 8 – Distribution of sizes according to Maxwell's law



Şəkil 9 – Kəsik normal qanunun qrafiki göstərilməsi
Figure 9 – Graphic representation of the cut normal law



Şəkil 10 – Reley qanununun qrafiki göstərilməsi
Figure 10 – Graphic representation of Rayleigh's law



Şəkil 11 – Veybulla qanununun qrafiki göstərilməsi
Figure 11 – Graphic representation of Weibull's law



Şəkil 12 – Rotasion yonma ilə emal edilmmiş detalların əyilmələrinin $\Delta_ə$ azotlaşdırmadan əvvəl və sonrakı dəyişmələri.
1 – azotlaşdırmadan əvvəlki,
2 – azotlaşdırmadan sonrakı dəyişmələr
Figure 12 – Variations of deflections of parts processed by rotary cutting $\Delta_ə$ before and after nitriding.
1 – before nitrification,
2 – changes after nitrification



Şəkil 13 – Adi kəski ilə emal edilmiş detalların əyilmələrini $\Delta_ə$ azotlaşdırmadan əvvəl və sonrakı dəyişmələri: 1 – azotlaşdırmadan əvvəlki,
2 – azotlaşdırmadan sonrakı dəyişmələr
Figure 13 – Variations of the deflections of parts machined with a conventional chisel before and after nitriding to$\Delta_ə$: 1 – before nitrification,
2 – changes after nitrification

Göründüyü kimi şəkil 12-də verilmiş əyriləri Simpson, şəkil 13-də verilmiş əyriləri Veybulla, şəkil 14-də verilmiş əyriləri Maksvel, şəkil 15-də verilmiş əyriləri Normal paylanma qanunlarının nəzəri əyriləri ilə aproksimasiya (ifadə) etmək olar.

Qeyd olunduğu kimi gəmi maşın və avadanlıqlarının detallarının ölçülən parametrləri təsadüfi kəmiyyətlər kimi xarakterizə olunurlar.

Paylanmanın inteqral funksiyası – elə ehtimala deyilir ki, təsadüfi kəmiyyət, qeyd edilmiş x qiymətindən az qiymətə malik x_i qiymətini qəbul edə bilsin.

$$F(x) = P(x_i < x) \tag{19}$$

Təsadüfi kəmiyyətin paylanma sıxlığı (paylanmanın diferensial funksiyası, yaxud ehtimalın sıxlığı) aşağıdakı kimi yazılır.

$$f(x) = \lim_{\Delta x \to \infty} \frac{F(x + \Delta x) - F(x)}{\Delta x} = \\ = \frac{dF(x)}{dx} = F'(x). \tag{20}$$



Şəkil 14 – Pardaqlama ilə emal edilmiş detalların əyilmələrinin $\Delta_ə$ azotlaşdırmadan əvvəl və sonrakı dəyişmələri: 1 – azotlaşdırmadan əvvəlki,
2 – azotlaşdırmadan sonrakı dəyişmələr
Figure 14 – Variations of deflections of polished parts before and after nitriding to$\Delta_ə$: 1 – before nitrification,
2 – changes after nitrification

Təsadüfi kəmiyyətin paylanmasının şərti sıxlığı – paylanmanın sıxlığının ehtimala nisbətinə deyilir və təsadüfi kəmiyyətin qiymətinin, qeyd edilmiş qiymətdən artıq olacağı nəzərdə tutulur.

$$\lambda(x) = \frac{f(x)}{p\{x_i > x\}} = \frac{f(x)}{1 - F(x)} \tag{21}$$



Şəkil 15 – Detalların daxili səthlərinin diametrlərinin azotlaşdırmadan əvvəl və sonrakı dəyişmələri:
1 – azotlaşdırmadan əvvəlki,
2 – azotlaşdırmadan sonrakı dəyişmələr
Figure 15 – Changes of the diameters of the internal surfaces of the details before and after nitriding:
1 – before nitrification, 2 – changes after nitrification

Əgər detalın imtinaya qədər işləmə vəziyyətinə təsadüfi kəmiyyət kimi baxsaq, onda paylanmanın inteqral funksiyası-imtina ehtimalına, paylanmanın sıxlığı – işləmənin paylanma sıxlığına, paylanmanın şərti sıxlığı – imtinaların intensivliyinə uyğun olacaqdır.

Təsadüfi kəmiyyətin xarakteristikaları üçün paylanma funksiyaları ilə bərabər, onlar haqqında daha çox məlumat verən ədədi göstəricilərdən də istifadə etmək mümkündür. Təsadüfi kəmiyyətlərin əsas xarakteristikaları *riyazi gözləmə, orta kvadratik sapma, dispersiya, momentlər, mediana və variasiya* əmsalıdır. Riyazi gözləmə – təsadüfi kəmiyyətin orta qiymətinə deyilir.

Diskret təsadüfi kəmiyyətlər üçün riyazi gözləmə:

$$M(x) = x_{or.} = \sum_i x_i p(x_i), \qquad (22)$$

Fasiləsiz təsadüfi kəmiyyətlər üçün:

$$M(x) = \int_{-\infty}^{+\infty} x f(x) dx = \int_{-\infty}^{+\infty} x dF(x), \qquad (23)$$

Qeyri mənfi fasiləsiz təsadüfi kəmiyyətlər üçün isə:

$$M(x) = \int_{0}^{+\infty} [1 - F(x) dx] = \int_{0}^{+\infty} p(x)\, dx \qquad (24)$$

şəkilində ifadə edilir.

Təsadüfi kəmiyyətlərin dispersiyası – onun riyazi gözləmədən sapmasının kvadratının riyazi gözləməsidir.

$$D(x) = M[x - M(x)]^2 = M(x^2) - M^2(x). \qquad (25)$$

Fasiləsiz təsadüfi kəmiyyət üçün dispersiya:

$$D(x) = \int_{-\infty}^{+\infty} [x - M(x)]^2\, dF(x) \qquad (26)$$

ifadəsi ilə təyin edilir.

Dispersiya təsadüfi kəmiyyətin paylanmasını xarakterizə edir.

Momentlər, təsadüfi kəmiyyətin paylanmasının əsas xüsusiyyətlərinin, bir neçə ədədi xarakteristikalarla ifadə olunması xassəsidir.

Təsadüfi kəmiyyətin variasiya (riyazi təhlil) əmsalı – orta kvadratik sapmanın riyazi gözləməyə nisbətindən təyin olunur

$$v_x = \frac{\sigma_x}{M(x)}. \qquad (27)$$

Mediana (orta qiymət), paylanmanın inteqral funksiyası 0,5-ə bərabər olduqda, fasiləsiz təsadüfi kəmiyyətin qiymətinə deyilir. Mediana – kvantilin xüsusi halıdır.

p səviyyəsinin kvantili, $(p(x \leq u_p) = F(u_P) = p$ olduqda, u_p kəmiyyətidir. *Kvantil* – $F(u_P) = p$ tənliyinin köküdür. Mediana – $p = 0{,}5$ səviyyəsinin kvantilidir. *Kvantil* istənilən paylanma qanununun ədədi xarakteristikasıdır.

Moda – paylanmanın sıxlığı maksimum qiymət aldığı zaman təsadüfi kəmiyyətin qiymətinə deyilir.

Mərkəzləşdirilmiş təsadüfi kəmiyyət x', təsadüfi kəmiyyətin ilkin qiymətindən riyazi gözləməni çıxmaqla alınır:

$$x' = x - M(x). \quad (28)$$

Normalaşdırılmış təsadüfi kəmiyyət $\bar{x}$, təsadüfi kəmiyyətin ilkin qiymətini, orta kvadratik sapmaya bölməklə alınır:

$$\bar{x} = \frac{x}{\sigma_x}. \quad (29)$$

Nəticə

Diskret təsadüfi kəmiyyətlər üçün Binomal, Puasson, Həndəsi və Hiperhəndəsi paylanmalardan, fasiləsiz təsadüfi kəmiyyətlər üçün isə Bərabər ölçülü, Eksponensial, Normal, Kəsik normal, Loqarifmik normal, Simpson, Maksvel, Reley və Veybulla paylanmalarından istifadə etmək daha məqsədə uyğundur.

Maraqlar münaqişəsi

Müəlliflər bu məqalədə araşdırılması tələb olunan maraqlar münaqişəsinin olmadığını qeyd edirlər.

REFERENCES

1. **Qafarov A.M.** Metrologiya standartlaşdırma və sertifikatlaşdırma / A.M. Qafarov. – Bakı*: Elm*, 2012. – 525s. *(in Azerbaijani)*
2. **Gafarov A.M.** Tekhnologicheskie sposoby povysheniya iznosostojkosti detalej mashin / A.M. Gafarov. – Baku: *Nauka*, 1998. – 318 s. *(in Russian)*
3. **Kafarov V.V.** Metody kibernetiki v himii i himicheskoj tekhnologii / V.V. Kafarov. – Moskva: *Himiya*, 1976. – 464 s. *(in Russian)*
4. **Gafarov A.M.** Rotacionnoe tochenie / A.M. Gafarov. – Baku: *Nauka*, 2000. – 128 s. *(in Russian)*
5. **Qafarzadə H.V.** Çoxfaktorlu əməliyyatların və mürəkkəb texnoloji proseslərin modelləşdirilməsi, optimallaşdırılması və idarə edilməsi metodlarının analizi. Bakı: *Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri*, 2021.T.13, №2. – S. 40-47. *(in Azerbaijani)*
6. **Algazin S.D.** Vychislitelnyj eksperiment o zadache o flattere pryamougolnoj plastiny. – Moskva: *Matematicheskoe modelirovanie*, 2021. T.33, №6. – S. 107-116. *(in Russian)*
7. **Agasiev T.A.** Sovremennye tekhniki globalnoj optimizacii. – Penza: *Informacionnye tekhnologii*, 2018. №6. –S. 370-386. *(in Russian)*
8. **Anistratenko V.G.** Matematicheskaya planirovaniya eksperimentov v APK / V.G. Anistratenko, V.G. Fedorov. – Kiev: *Vysshaya shko*la, 1993. – 375 s. *(in Russian)*
9. **Janahmadov A.Kh., Volchenko A.I., Volchenko N.A. [i dr.].** Tribologiya: trenie, iznos, smazka. - Baku, *«Apostrof – A»*, 2019. – 640 s. *(in Russian)*
10. **Pen R.Z.** Staticheskie metody modelirovaniya i optimizacii tekhnologicheskih processov / R.Z. Pen, V.R. Pen. – Moskva: *Mezhdunarodnij zhurnal eksperimentalnogo obrazovaniya*, 2017. №2. – S. 81-83. 83 *(in English)*

Məqalədə yeraltı qaz anbarında qazılmış, layın açılma dərəcəsinə görə qazodinamik tamamlanmamış yastıdibli hasiledici quyunun dəqiq debit düsturu çıxarılmışdır. Qaz anbarının layı horizontaldır və bircinslidir; qaz quyuları anbar layının açılma dərəcəsinə görə tamamlanmamışdır, açılma xarakterinə görə isə tamamlanmışdır. Layın açılmış yuxarı hissəsindən hasiledici quyuya süzülmə axını sadə yastı-radialdır; aşağı açılmamış hissəsindən hasiledici quyuya axın isə mürəkkəbdir, yəni əyri xətli radialdır. Qoyulmuş məsələni həll etmək üçün yeni metod təklif edilmişdir, burada yastı dibli hasiledici qaz quyusu dibi çökək yarımsfera səthi şəklində olan hasiledici qaz quyusu ilə əvəz edilmişdir, bütün digər parametrlər uyğun olaraq, qiymətcə bir-birinə bərabər qəbul edilmişdir. Qazın süzülməsi nəzəriyyəsindən istifadə edərək, dibi çökək yarımsfera səthi olan hasiledici ikinci quyunun qaz debiti üçün düstur çıxarılmışdır ki, bu da yastı dibli verilmiş quyunun dəqiq debit düsturu olacaqdır.

Açar sözlər: yeraltı qaz anbarı (YQA), qazın aktiv və bufer həcmləri, kəşfiyyat, qaz kəməri, sənaye istismarı, geoloji strukturlar, qaz boşluğu, maksimal və minimal təzyiqlər, keçiricilik, məsaməlik.
DOI 10.52171/2076-0515_2023_15_02_59_63

УДК 622.27.621.52

Расчет дебита газодинамической несовершенной эксплуатационной плоскодонной скважины по степени вскрытия пласта в подземных хранилищах газа (ПХГ)

О.А. Алиева[1], А.С. Алиев[2]
[1]*Азербайджанский государственный университет нефти и промышленности (пр. Азадлыг, 16/21, Баку, AZ1010, Азербайджан)*
[2]*НИИ Геотехнологические проблемы нефти, газа и химии (ул. Д. Алиевой, 227, Баку, AZ1010, Азербайджан)*
Для переписки:
Алиева Афелия / e-mail: aliyeva.afeliya@inbox.ru

Аннотация

В статье впервые выведена точная формула дебита газа плоскодонной скважины, газодинамически несовершенной по степени вскрытия пласта подземного хранилища газа. Пласт газового амбара горизонтально однороден, газовые скважины газодинамически несовершенны по степени вскрытия пласта амбара и совершенны по характеру вскрытия пласта. Во вскрытой верхней части пласта фильтрационный поток газа из амбара к скважине плоско-радиальный, а в нижней, невскрытой части пласта к скважине проходит сложный, криволинейно-радиальный поток. Для решения поставленной задачи предложен новый метод: здесь плоскодонная добывающая газовая скважина заменена скважиной, забой которой имеет вогнутую полусферическую поверхность, все другие соответствующие параметры приняты равными друг другу. Используя теорию фильтраций газа, выведена формула дебита газа второй скважины, которая является формулой точного дебита газа заданной плоскодонной скважины.

Ключевые слова: подземное хранилище газа (ПХГ), плоскодонная скважина, степень вскрытия пласта, газодинамическая несовершенная скважина, формула дебита, шарошечное долото, капиталь, вложение, полусферический радиальный поток, криволинейно-радиальный поток, плоско-радиальный поток.

Giriş

Təbii qaz yataqlarında olduğu kimi, yeraltı qaz anbarlarında (YQA) da karbohidrogen qazının özlülüyü lay şəraitlərində olan digər flüidlərin, yəni lay neftinin və lay suyunun özlülüklərindən dəfələrlə aşağı olur. Ona görə də təbii qazın süzülmə qabiliyyəti (süzülmə sürəti) onlara nisbətən çox yüksək olur. Bu səbəbdən, qaz quyuları arasındakı məsafəni neft yata-ğındakından çox götürürlər.

Həm də onların layın açılma dərəcəsinə görə qazodinamik tamamlanmış deyil, tamamlanmamış olmaları məsləhətdir.

İşin məqsədi

Məlumdur ki, quyular şaroşkalı baltalarla qazılırlar və onlar yastıdibli olurlar.

Yastıdibli quyunu işə salanda, orda iki müxtəlif süzülmə axınları baş verir (şəkil):

1. Layın açılmış yuxarı hissəsində - yastıradial sadə;
2. Layın açılmamış aşağı hissəsində - mürəkkəb (yəni əyri xətli radial axın).

Qeyd etmək lazımdır ki, neft yataqlarında layın açılma dərəcəsinə görə natamam yastıdibli quyunun dəqiq debit düsturu hələ indiyədək çıxarılmamışdır. Lakin hesablamalarda bundan fərqli olaraq, təxmini düsturlar çıxarılmışdır [1, 2].

Lakin təbii qaz yataqlarında yaxud yeraltı qaz anbarlarında (YQA) indiyədək bunun üçün heç cəhd də edilməmişdir və ədəbiyyatda bu məsələ ilə bağlı heç bir məlumat yoxdur.

Bu məqalədə, qeyd edilmiş məsələnin həlli üçün çox maraqlı bir üsul təklif edilmişdir.



Şəkil – Qaz anbarında hasiledici qaz quyusunun sxemləri: 1 - yastıdibli; 2 - çökək yarımsfera dibli
Figure – Schemes of production gas well in gas storage: 1 - flat bottom; 2 - concave hemisphere bottom

Şəkildə aşağıdakı şərti işarələr qəbul edilmişdir: R_k - qidalanma konturunun radiusu; r_q - quyunun radiusu; h - layın qalınlığı; α - layın açılmış hissəsinin qalınlığı; 2σ - iki qonşu quyular arasındakı məsafə; P_k - lay təzyiqi; P_q - quyudibi dinamik təzyiq; K_1 - layın yuxarı hissəsində qaza görə keçiricilik əmsalı; K_2 - quyu №2 üzrə layın aşağı hissəsinin qaza görə keçiricilik əmsalı.

İşin yerinə yetirilməsi

Təklif edilmiş üsulda yastıdibli hasiledici qaz quyusu, dibi çökək yarımsfera şəklində olan hasiledici qaz quyusu ilə əvəz edilmişdir, özü də bu quyuların bütün digər geoloji-fiziki xassələri (parametrləri) qiymətcə bərabər qəbul edilmişdir [3].

Yeraltı qaz anbarının (YQA) açılmış yuxarı hissəsində hər iki quyular (№1 və №2) üzrə cari süzülmə sürəti aşağıdakı düsturla ifadə olunur, çünki burada yastı radial sadə axın baş verir:

$$\upsilon_1 = \frac{K_{q1}}{\mu_q}\frac{dp}{dr} = \frac{K_{q1}\left(P_k^2 \neg P_q^2\right)}{2\mu_q P(r)\ln\frac{R_k}{r_q}} \bullet \frac{1}{r} \qquad (1)$$

Hasiledici qaz №2 quyusu üzrə layın açılmamış aşağı hissəsində yarım-sferik sadə axın baş verir və cari süzülmə sürəti aşağıdakı düsturla təyin olunur [4-6]:

$$\upsilon_2 = \frac{K_{q2}}{\mu_q}\frac{dp}{dr} = \frac{K_{q2}\left(P_k^2 \neg P_q^2\right)}{2p(r)\mu_1\left(\frac{1}{r_q} \neg \frac{1}{R_k}\right.} \bullet \frac{1}{r^2} \qquad (2)$$

Qaz anbarının yuxarı açılmış hissəsində cari süzülmə səthinin sahəsi

$$F_1 = 2\pi rh \qquad (3)$$

olacaq.

Hasiledici qaz quyusu №2 üzrə layın aşağı açılmamış hissəsində cari süzülmə səthinin sahəsi isə:

$$F_2 = 2\pi r^2 \qquad (4)$$

olacaqdır.

Yeraltı qaz anbarının yuxarı açılmış hissəsindən hasiledici quyu №2-nin qaz debiti aşağıdakı şəkildə olacaq:

$$Q_1 = F_1\upsilon_1 = \frac{2\pi K_1 h(P_k^2 \neg P_q^2)}{P_0\mu_q \ln\frac{R_k}{r_q}} \qquad (5)$$

Anbarın aşağı açılmamış hissəsindən hasiledici qaz quyusu №2-nin qaz debiti isə

$$Q_2 = F_2\upsilon_2 = \frac{K_2\left(P_k^2 \neg P_q^2\right)}{2p(r)\mu_q\left(\frac{1}{r_q} \neg \frac{1}{R_k}\right)} \qquad (6)$$

olacaq.

Qaz anbarının hasiledici qaz quyusu №2-nin tam qazın debiti isə aşağıdakı kimi olacaq:

$$Q = Q_1 + Q_2 = \frac{2\pi K_1 h\left(P_k^2 \neg P_q^2\right)}{P_0\mu_q \ln\frac{R_k}{r_q}} + \frac{K_2\left(P_k^2 \neg P_q^2\right)}{2p(r)\mu_q\left(\frac{1}{r_q} \neg \frac{1}{R_k}\right)} = \left[\left[\frac{2\pi K_1 h}{p_0 ln\frac{R_k}{r_q}}\right] + \frac{K_2}{2p(r)\left(\frac{1}{r_q} \neg \frac{1}{R_k}\right)}\right] \bullet \frac{P_k^2 \neg P_2^2}{\mu_q} \qquad (7)$$

Düstur (7) ilə hasiledici yastıdibli quyu №1-in dəqiq tam qaz debiti təyin edilir. Beləliklə, məqalədə qoyulmuş məsələ tamamilə həll edilmiş olur [5, 7].

Nəticə

Məqalədə, yeraltı qaz anbarında (YQA) qazılmış layın açılma dərəcəsinə görə qazodinamik tamamlanmamış yastıdibli hasiledici qaz quyusunun dəqiq debit düsturu çıxarılmışdır.

Qaz anbarının layı horizontal vəziyyətdə yatmışdır və bircinslidir; qaz quyuları anbar layının açılma dərəcəsinə görə tamamlanmamışdır, açılma xarakterinə görə isə tamamlanmışdır.

Layın açılmış yuxarı hissəsindən hasiledici quyuya süzülmə axını sadə yastı-radialdır;

aşağı açılmamış hissəsindən hasiledici quyuya axın isə mürəkkəbdir, yəni əyri xətli radialdır.

Qoyulmuş məsələni həll etmək üçün yeni metod təklif edilmişdir, burada yastıdibli hasiledici qaz quyusu dibi çökək yarımsfera səthi şəklində olan hasiledici qaz quyusu ilə əvəz edilmişdir, bütün digər parametrlər uyğun olaraq, qiymətcə bərabər götürülmüşdür.

Qazın süzülməsi nəzəriyyəsindən istifadə edilərək, dibi çökək yarımsfera səthi olan hasiledici ikinci quyunun qaz debiti üçün düstur çıxarılmışdır ki, bu da yastı dibli verilmiş quyunun debit düsturu olacaq.

Məsələni bu cür həll etdikdə xeyli uzunluqda quyuların qazılması ixtisar olunur və kapital qoyuluşuna qənaət edilir.

Maraqlar münaqişəsi

Müəlliflər bu məqalədə araşdırılması tələb olunan maraqlar münaqişəsinin olmadığını qeyd edirlər.

REFERENCES

1. **Shchelkachev V.N., Lapuk B.B.** Podzemnaya gidravlika. Moskva-Leningrad: *Gostoptekhizdat,* 1949, s.126-128; s.523 *(in Russian)*
2. **Charnyj I.A.** Podzemnaya gidrogazodinamika. Moskva*: Gostoptekhizdat,*, 1963, s.145-149; s. 396 *(in Russian)*
3. **Mustafaev S.D., Alieva M.G.** Vliyanie profilya buryashchijsya skvazhiny na reshenie teoreticheskih zadach razrabotki neftyanyh mestorozhdenij, *ANH*, №9, 2015, s.14-17 *(in Russian)*
4. **Mirzəcanzadə A.X., Əhmədov Z.M.** Yeraltı hidroqazodinamika. Bakı, 1986, s.33-35; s.100 *(in Azerbaijani)*
5. **Mirzəcanzadə A.X.** və başq. Neft-qaz yataqlarının işlənməsi və istismarının nəzəri əsasları. // *Azərbaycan Dövlət Neft və Elmi-texniki ədəbiyyat nəşriyyatı.* Bakı, 1960, 412 s. *(in Azerbaijani)*
6. **Aliyeva O.A., Aliyev A.S.** Stationary filtration of natural gas in the underground gas storage by spherical-radial flow// DEUTSCHE international Zeitschrift, für zeitgenössische Wissenschaft, №17, s. 5-7, 2021 *(in Germany)*
7. **Əliyeva O.Ə., Əliyev Ə.S.** Yeraltı qaz anbarlarının yaradılması və kəşfiyyat-sənaye istismarı zamanı qazın vurulması və çıxarılması. *Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri*, 2021, cild 13, № 3, s. 61-66 *(in Azerbaijani)*

Dynamic Viscosity of Gases at Temperature and Pressure

E.R. Hajibalayev

Azerbaijan State Marine Academy (Zarifa Aliyeva st. 18, Baku, AZ1000, Azerbaijan)

For correspondence:

Hajibalayev Elvin / e-mail: ehacibalayev@inbox.ru

Abstract

The following issues are considered in the article: the concept of viscosity in liquids and gases; the effect of pressure and temperature changes on the process. Dependence of viscosity of natural gas on pressure and temperature. Based on laboratory studies, the analysis was performed using the small squares method and an empirical equation was obtained. Determining the error in a given value of the correlation coefficient.

Keywords: gas, viscosity, pressure, temperature, laboratory researches.

DOI 10.52171/2076-0515_2023_15_02_64_68

Accepted *24.02.2022*
Received *19.06.2023*
Revised *21.06.2023*

For citation:
Hajibalayev E.R.
[Dynamic viscosity of gases at temperature and pressure]
Herald of the Azerbaijan Engineering Academy, 2023, vol. 15, no. 2, pp. 64-68 *(in Azerbaijani)*

Qazların təzyiq və temperaturda dinamiki özlülüyü

E.R. Hacıbalayev

Azərbaycan Dövlət Dəniz Akademiyası (Zərifə Əliyeva küç.18, Bakı, AZ1000, Azərbaycan)

Yazışma üçün:
Hacıbalayev Elvin / e-mail: ehacibalayev@inbox.ru

Xülasə

Məqalədə aşağıdakı məsələlərə baxılıb: maye və qazlarda özlülük anlayışı; təzyiq və temperaturun dəyişməsinin prosesə təsiri. Təbii qazın özlülüyünün təzyiq və temperaturdan aılılığı. laboratoriya tədqiqatlarını əsas götürərək, kiçik kvadratlar metodu vasitəsilə analiz aparılmış və empirik tənlik əldə edilmişdir. Korrelyasiya əmsalının verilmiş qiymətində xəta təyin olunmuşdur.

Açar sözlər: qaz, özlülük, təzyiq, temperatur, laboratoriya tədqiqatları.

DOI 10.52171/2076-0515_2023_15_02_64_68

УДК 533.16

Динамическая вязкость газов при давлении и температуре

Э.Р. Гаджибалаев

Азербайджанская государственная морская академия (ул. Зарифы Алиевой, 18, Баку, AZ1000, Азербайджан)

Для переписки:
Гаджибалаев Эльвин / e-mail: ehacibalayev@inbox.ru

Аннотация

В статье рассмотрены вопросы применительно к понятию вязкости в жидкостях и газах, а также влияние изменения давления и температуры на процесс. Получены зависимости вязкости природного газа от давления и температуры. На основании лабораторных исследований выполнен анализ методом малых квадратов и получено эмпирическое уравнение. Определены погрешности заданного значения коэффициента корреляции.

Ключевые слова: газ, вязкость, давление, температура, лабораторные исследования.

Herald of the Azerbaijan Engineering Academy
2023, vol. 15, no. 2, pp. 64-68
Hajibalayev E.R.

Giriş

Özlülük təbii qaza və mayeyə xarakterik olan amillərdən biridir. Özlülük maye və qazların layda, nasos və kompressor boru-kəmərlərində nəql edilməsində, süxurların məsamələrində hərəkəti zamanı xüsusi əhəmiyyətli olan parametrlərdən biridir. Özlülük, yaxud qazlarda yaranan daxili sürtünmə qüvvəsi molekulların hərəkəti zamanı bir-birinə müqavimət göstərməsindən meydana çıxan parametrdir.

Ədəbiyyatda qazların bu xassələri göstərilmişdir. Lakin bildiyimiz kimi layda qazın təzyiqi və temperaturu böyük olur. Ona görə də bir çox parametrlərin təzyiqi və temperaturdan asılılığı praktikada özünü göstərir.

Laboratoriya tədqiqatları göstərir ki, bir çox hallarda təzyiq və temperaturun dəyişməsi, bir çox parametrlərin dəyişməsi həm prosesə, həm də texniki hesabatlara təsir göstərir. Bu hesabatlara əsasən qazın sərfi, təzyiqlər fərqi kəskin dəyişir [1-3].

Aparılan hesabatlar göstərir ki, özlülüyün təzyiq və temperaturdan asılı olaraq dəyişməsi qaza, dinamiki proseslərə təsir göstərir. Hesabatı asanlaşdırmaq məqsədi ilə gətirilmiş təzyiq və gətirilmiş temperatur anlayışından istifadə edilmişdir.

İşin məqsədi

Ədəbiyyatda külli miqdarda laboratoriya tədqiqatları var. Bu məlumatları toplayıb, riyazi üsullarla analiz edib, təbii qazın dinamiki özlülüyünün temperatur və təzyiqdən aslılığı verilmişdir. Mayelərdə olduğu kimi, qazlarda da özlülük anlayışına malikdirlər. Fərz edək ki, bir-birindən müəyyən məsafədə yerləşən iki müstəvi lövhələrin arasında qaz yerləşir. Qəbul edək ki, çox böyük olmayan qüvvənin təsiri altında lövhələrin biri hərəkət edir. Bu zaman lövhələr müəyyən sürətdə hərəkət edir. Lövhəyə toxunan qaz qatı başqa sürət ilə hərəkət edir.

Qaz təbəqələri arasında molekulların xaotik hərəkəti və qarşılıqlı cazibə qüvvəsinin təsiri ilə yaranan daxili sürtünmə nəticəsində üst təbəqə ilə birlikdə hərəkətə qoşulur. Lakin təbəqələr arasında sürətlər arası fərq yaranır, yəni alt təbəqə üst təbəqənin hərəkətini dayandırmağa cəhd edir. Bunun nəticəsində üst təbəqənin sürəti alt təbəqnin sürətindən çox olur.

Belə təbəqələr arasında laminar hərəkət yaranır. Göstərilən hərəkət zamanı əks istiqamətə yönəlmiş sürtünmə qüvvəsi nəticəsində hərəkət edən lövhədən uzaqlaşdıqca qaz molekullarının sürəti azalır və tərpənməz lövhədə olan qazın sürəti sıfır olur.

Məsələnin qoyuluşu

Qaz dairəvi boruda axarkən laminar rejimdə hərəkət edən qaz molekulların en kəsik boyunca radiusdan asılı olaraq sürətin paylanması parabolik qanunla verilir. Göstərilən halda boru divarında toxunan qaz molekullarının sürəti sıfıra bərabər olur, borunun mərkəzində isə sürət maksimum olur.

Bir-birinə çox yaxın olan qaz təbəqələrinin arasında məsafəni (dx) u (dr) işarə etsək, onda təbəqələr arasında sürətin azalmasını (du) ifadə edək. Onda hesabata sürət qradienti anlayışını daxil etmək olar. Onda göstərmək olar ki, qaz təbəqələrinin hərəkətində sürət qradienti sürüşmə deformasiyasının sürətinə bərabər olur.

Hesabatı aparmaq üçün hər hansı bir nöqtələr arasında qazın həcmini nəzərdən keçirək. Təbəqələrin müxtəlif sürətlə hərəkət etdiyini nəzərə almaqla qazlar həcmi

deformasiyaya uğrayır. Onda kiçik bucaq üçün yazmaq olur ki, $d\varphi = tg(d\varphi) = \frac{du \cdot dt}{dx}$

Sonuncu tənliyi başqa şəkildə də ifadə etmək olur.

$$d\varphi = tg(d\varphi) = \frac{du \cdot dt}{dr} \quad (1)$$

Tənliyi aşağıdakı, kimidə ifadə etmək olar.

$$\frac{du}{dx} = \frac{d\varphi}{dt} \text{ və ya } \frac{du}{dr} = \frac{d\varphi}{dt} \quad (2)$$

Qeyd etmək olar ki, Nyuton qanununa görə, qaz molekullarının hərəkət zamanı daxili sürtünmə qüvvəsi bu qüvvənin tətbiq olunduğu təbəqələrin sahəsi və təbəqələr arasındakı sürət qeadientinin modulu ilə düz mütanasibdir.

$$F = \pm \mu s \frac{du}{dx} \text{ və ya } F = \pm \mu s \frac{du}{dr} \quad (3)$$

Burada μ-mütənasiblik əmsalı olub, qazın dinamiki özlülüyü adlanır.

Sonuncu tənlikdən qazın dinamiki özlülüyünü tapmaq olur. Nyuton qanununa tabe olan qazlar üçün özlülük invariant xassəsi sayılır. Özlülüyün tərs qiyməti isə axıcılıq adlanır. Bu özü xarici qüvvələrin təsiri altında qazın axma qabliyyətini xarakerizə edir.

Məsələnin həlli

Qazların özlülüyü temperaturdan aslı olaraq dəyişir. Lakin qazın dinamik özlülüyünün həm temperaturdan, həm də təzyiqdən aslılığını ifadə edən düstur yoxdur. Baxılan işdə aparılan təcrübələr əsasında verilmiş materiala əsasən özlülüyün təzyiq və temperaturdan aslılığını göstərməkdədir [1-5].

İndiki zamanda qazların dinamiki özlülüyünün təyin etmək üçün xüsusi nəzəriyyə yoxdur. Ona görədə nəzəri hesabat nəticəsində özlülüyü təzyiq və temperaturdan aslılığı yoxdur. Bunu nəzərə alaraq labaratoriya tədqiqatlarına müraciət edilir. Xarici ədəbiyyatda korrelyasiya metodu kimi təbii qazın temperaturdan aslılığı verilmişdir. Lakin burda labaratoriya tədqiqatları yalnız atmosfer təzyiqində aparılmışdır [1].

Digər metodlarla yanaşı [3-5] ədəbiyyatdada külli miqdarda laboratoriya tədqiqatlarını verilmişdir. Bu labaratoriya tədqiqatlarını əsas götürərək, kiçik kvadratlar metodu vasitəsi ilə analiz aparılmış və aşağıdakı emprik tənlik anlınmışdır.

$$\frac{M_{P,T}}{M_o} = (1{,}85 \cdot p_g - 0{,}29 \cdot P_g^2 + 1{,}51)(\frac{1}{T_g})^8 + (1{,}81 P_g - 0{,}02 \cdot P_g^2 + 1{,}82)(\frac{1}{T_g})^4 + \left(0{,}01 \cdot P_g^2 - 0{,}17 \cdot P_g + 1{,}49\right) \quad (4)$$

Burada $M_{p,T}$ – gətirilmiş təzyiq və temperaturda təbii qazın dinamiki özlüzlüyü; M_o – atmosfer şəraitində, yəni normal təzyiq və temperaturda qazın dinamik özlülyü; P_g – gətirilmiş təzyiq; T_g –gətirilmiş temperatur.

Burda gətirilmiş temperatur və təzyiq aşağıdakı tənliklərdə tapılır.

$$P_g = \frac{P}{P_b} T_g = \frac{T}{T_g} \quad (5)$$

Burda P_b və T_b - verilmiş qazın böhran təzyiqi və temperaturdur.

Aparılan analiz zamanı müxtəlif tərkibli qazların dinamiki özüllükləri nəzirə alınmışdır [6]. Bunu nəzərə alaraq hesabatda təbii qazın mol tərkibində qəbul olunmuşdur.

$$P_b = \sum_{i=1}^{n} y_i \, p_{b,i} \text{ və } T_b = \sum_{i=1}^{n} y_i \, T_{b,i} \quad (6)$$

Burada $p_{b,i}T_{b,i}$ - ayrı-ayrı komponentlərin böhran təzyiq və y_i - qarışığın mol komponentidir.

Aparılan hesabatlar göstərir ki, verilmiş metod əsasında hesabatlarda xətta korrelyasiya əmsalının 0,9 qiymətində 3-5 % təşkil edir.

Nəticə

Müxtəlifin tədqiqatları əsasında laboratoriya nəticələri analiz olunmuşdur.

Verilmiş laboratoriya tədqiqatları əsasında hesabat metodu təklif olunur.

Maraqlar münaqişəsi

Müəllif bu məqalədə araşdırılması tələb olunan maraqlar münaqişəsinin olmadığını qeyd edir.

REFERENCES

1. **Carr N.Z., Kobayash R., Burrows D.B.** $Trans\ A$.1.M.E. 1984, pp. 201-264. *(in English)*
2. **Lee A.L., Consaler M.H., Eakin B.E.** Journal. Petrol. Teach, no. 8, 1966, 997 p. *(in English)*
3. Natural gas production, transport and processing guide. Under the direction of J.M. Korotayeva, 2005, 365 p. *(in Russian)*
4. **Amix D., Base D., Whiting R.** Oil reservoir physics. *State Scientific and Technical Publishing House of Oil and Mining and Fuel Literature*. 1962, 402 p. *(in English)*
5. Oilfield development handbook. Part II. Izhevsk, 2015, 278 p. *(in Russian)*
6. http://www.ama.com.az/wp-content/uploads/2022/01/Volume13-N4-2021.pdf

Application of Nanotechnological Devices in Mobile Phones

B.H. Aliyev[1], Kh.M. Gashimov[2], A.E. Mamedova[3], J.R. Sultanova[1]

[1]*MAKA-Institute of Ecology (S.S. Akhundov str.1, Baku, AZ 1115, Azerbaijan)*
[2]*Azerbaijan State Economic University (Istiglaliyyat str. 6, Baku, AZ1001, Azerbaijan)*
[3]*Aghdam State College of Social Economy (Aghdam dist., Baku, AZ1122, Azerbaijan)*

For correspondence:
Sultanova Jeyran / e-mail: ceyranrehmetova@mail.ru

Abstract

The purpose of the work is to acquire a new type of PowerBank by applying a device obtained using nanotechnology to an existing PowerBank. For this, a Chinese-made PowerBank was purchased in China, and a new type of PowerBank (YPB) was developed by adding a solar battery made on the basis of palladium silicide using nanotechnology. YPB is powered by both battery and solar panels. On the other hand, the YPB battery can also be charged via a solar panel. The advantage of YPB is that it can work in places where there is no mains power. When charging YPB, it can be left in the network from night to morning, as the solar panel is automatically disconnected from the network after charging the battery.

Keywords: nanotechnologe, solar battery, silicide, palladium silicide,battery, powerbank.

DOI 10.52171/2076-0515_2023_15_02_69_73

Received *03.11.2022*
Revised *19.06.2023*
Accepted *21.06.2023*

For citation:
Aliyev B.H., Gashimov Kh.M., Mamedova A.E., Sultanova J.R.
[Application of nanotechnological devices in mobile phones]
Herald of the Azerbaijan Engineering Academy, 2023, vol. 15, no. 2, pp. 69-73 *(in Azerbaijani)*

Nanotexnoloji qurğunun mobil telefonlarda tətbiqi

B.H. Əliyev[1], X.M. Həşimov[2], Ə.E. Məmmədova[3], C.R. Sultanova[1]

[1] *MAKA-nın Ekologiya İnstitutu (S.S. Axundov küçəsi 1, Bakı, AZ1115, Azərbaycan)*
[2] *Azərbaycan Dövlət İqtisad Universiteti (İstiqlaliyyət küç. 6, Baku, AZ 1001, Azərbaycan)*
[3] *Ağdam Dövlət Sosial İqtisad Kolleci (Ağdam rayonu, AZ 0200, Azərbaycan)*

Yazışma üçün:
Sultanova Ceyran /e-mail: ceyranrehmetova@mail.ru

Xülasə

İşdə nanotexnologiyanın köməyi ilə alınmış qurğunu mövcud PowerBanka tətbiq etməklə yeni növ PowerBankın alınmasından bəhs olunur. Bunun üçün Çin istehsalı olan PowerBank Çin Xalq Respublikasından alınmışdır və ona nanotexnologiyanın köməyi ilə palladium silisid əsasında hazırlanmış günəş batareyası əlavə edərək yeni növ PowerBank (YPB) hazırlanmışdır. YPB həm akkumulyator batareyası, həm də günəş batareyası ilə işləyir. Digər tərəfdən günəş batareyası vasitəsilə YPB-ın akkumulyator batareyasını da doldurmaq olar. YPB-ın üstünlüyü ondan ibarətdir ki, o elektrik şəbəkəsi olmayan yerlərdə də işləyə bilər. YPB-ı dolduran zaman onu gecədən səhərə qədər də şəbəkədə saxlamaq olar, çünki günəş batareyası akkumulyator batareyasını doldurduqdan sonra avtomatik olaraq şəbəkədən ayrılır.

Açar sözlər: nanotexnologiya, günəş batareyası, silisid, palladium silisid,akkumulyator, powerbaqnk,

DOI 10.52171/2076-0515_2023_15_01_69_73

УДК 539.216.1.

Применение нанотехнологических устройств в мобильных телефонах

Б.Г. Алиев[1], Х.М. Гашимов[2], А.Э. Мамедова[3], Дж.Р. Султанова[1]

[1]*МАКА - Институт экологии (ул. С. Ахундова, AZ 1115, Баку, Азербайджан)*
[2]*Азербайджанский государственный экономический университет (ул. Истиглалият 6, Баку, Азербайджан)*
[3]*Агдамский государственный колледж социальной экономики (Агдамский район, AZ1122,Баку, Азербайджан)*

Для переписки:

Джейран Султанова /e-mail: ceyranrehmetova@mail.ru

Аннотация

В статье рассматривается приобретение PowerBank нового типа путем применения устройства, полученного с помощью нанотехнологий, к существующему PowerBank. Для этого в КНР был закуплен PowerBank китайского производства, а также разработан новый тип PowerBank (YPB) путем добавления солнечной батареи, изготовленной на основе силицида палладия с помощью нанотехнологий. YPB питается как от аккумуляторной батареи, так и от солнечной батареи. С другой стороны, аккумулятор YPB также можно заряжать через солнечную батарею. Преимущество YPB в том, что он может работать в местах, где нет электросети. При зарядке YPB его можно оставлять в сети с ночи до утра, так как солнечная батарея автоматически отключается от сети после зарядки аккумулятора.

Ключевые слова: нанотехнология,солнечная батарея, силицид, силицид палладия, аккумулятор, powerbank.

Herald of the Azerbaijan Engineering Academy
2023, vol. 15, no. 2, pp. 69-73
Aliyev B.H. et al.

Giriş

Müasir zamanda mobil telefonlardan istifadə gündəlik həyat normasına çevrilib. İnsanların əksəriyyəti səhər evdən çıxarkən hökmən telefonlarını götürüb-götürmədiklərini yoxlayırlar. Onların 90%-dən çoxu son pullarını belə mobil balansı artırmağa xərcləyirlər. Telefonların əksəriyyətinin gündəlik yaxud günaşırı doldurulmağa ehtiyacı olur.

Adətən telefonları şəbəkədən Adapter (doldurucu aparat) ya da PowerBank vasitəsilə doldururlar. Lakin səyahət zamanı və ya şəbəkə olmayan yerlərdə mobil telefonlar doldurulmağa ehtiyac duyulur.

Təklif olunan yeni qurğu (yeni PowerBank - YPB) elektrik şəbəkəsi olmayan yerlərdə mobil telefonları doldurmağa imkan verir. YPB əlavə olaraq silisid palladium – silisium Şottki kontaktı əsasında günəş elementi ilə təchiz olunmuşdur. Günəş elementləri (günəş batareyaları) Şottki kontaktlı fotodiodlardan təşkil olunmuşdur. Şottki fotodiodlarında alüminium kontaktı əvəzinə palladium silisid (PdSi) götürülmüşdür. PdSi "Oratoriya-5" qurğusunda maqnetron çökdürmə üsulu ilə alınmışdır.

İşin məqsədi

Nanotexnologiyanın köməyi ilə alınmış qurğunu mövcud PowerBanka tətbiq etməklə yeni növ PowerBankın alınmasıdır.

Məsələnin qoyuluşu

Günəş elementləri ümumi sahəsi 6 x 10 sm^2 olan silisium lövhə üzərində planar üsulla alınmışdır. Qalınlığı 300 mkm, yükdaşıyıcıların konsentrasiyası 1,5 x 10^{15} sm^{-3} olan standart silisium yarımkeçirici lövhəsi 20 saniyə ərzində kimyəvi aşınmaya məruz qalır və deionizasiya olunmuş suda yuyulur. Sonra lövhə 1000^0C temperaturda su buxarı atmosferində saxlanılır və bu zaman onun üzərində qalınlığı 0,5 mkm olan silisium dioksid təbəqəsi formalaşır. Şablonların köməyi ilə oksid təbəqəsindən fotolitoqrafiya üsulu ilə kiçik pəncərə açılır.

Hər bir pəncərənin sahəsi 1,2 x10^{-6} sm^2 təşkil edir. Növbəti əməliyyatda silisium təbəqəsinin üzərinə vakuum buxarlanma, yaxud maqnetron çökdürmə üsulu ilə 200 A^0 qalınlıqlı palladium təbəqəsi çəkilir. Maqnetron çökdürmə "Oratoriya -5" qurğusunda aşağıda göstərilən rejimdə aparılmışdır: qurğudakı təzyiq P=5 x10^{-5} paskal; hədəfə verilən gərginlik U = 450 V; anoda düşən cərəyan şiddəti J = 0,3 A; çökdürmənin davametmə zamanı T = 200 saniyə; termiki emalın müddəti,termiki t = 30 dəq, 8 saat; termiki emaldakı qaz qarışığı – H_2+O_2.

Məsələnin həlli

"Oratoriya-5" qurğusunda plazma almaq üçün işçi maddə kimi arqon (Ar) təsirsiz qazı istifadə olunmuşdur.

Termiki emal nəticəsində palladiumla silisium kimyəvi reaksiyaya girərək palladium silisid əmələ gətirir [1].

Reaksiyada iştirak etməyən palladium çar arağı adlanan həlledicinin köməyi ilə kənarlaşdırılır. Çar arağı 3:1 nisbətində xlorid turşusu (HCl) ilə nitrat tuşusunun (HNO_3) qarışığından ibarət məhluldur.

Palladium kontaktının alüminium kontaktından çox böyük üstünlükləri vardır. Belə ki, palladium silisid yaranan zaman texnoloji prosesdə onun üzərində çox nazik (20 A^0) oksid təbəqəsi yaranır ki, bu da onu xarici təsirlərdən qoruyur.

Şək.1-də palladium silisid əsasında yaradılan günəş batareyasının bir elementi göstərilmişdir.



Şəkil 1 – Palladium silisid əsasında günəş elementi
Figure 1 – Solar cell based on palladium silicide

Günəş enerjisi ilə işləyən akkumulyator batareyalarını hazırlayarkən müxtəlif növ mobil telefonlar üçün palladium silisid əsasında günəş elementlərinin sayı müxtəlif olur. Elementlərin sayı NOKİA-BM10 telefonlar üçün ən az, Smartfon telefonlar; HONOR ID, SAMSUNG, XIAOMI və s. tipli telefonlar üçün isə daha çox olur [2].

Tərəfimizdən yaradılan günəş batareyalarının üstün cəhətlərindən biri də odur ki, onlar batareyanı doldurduqdan sonra elektrik dövrəsini açır. Şək. 2-də günəş batareyası ilə doldurulan NOKIA-BM 10 telefonu göstərilmişdir.

Şəkil 2 – Günəş elementinə birləşmiş mobil telefon
Figure 2 – Mobil Phone connected to the solar element

Şək. 2-də yeni PowerBankın (PB) bütün hissələri aydın görünür, belə ki, yeni qurğu Çin istehsalı olan PB-dan, onun qapağından və palladium silisid əsasında hazırlanmış 6 x 10 sm^2 ölçüsü olan günəş panelindən (qara rəngli) ibarətdir.

Çin istehsalı olan bu PB-da günəş elementi olmur, o 3,7 voltluq akkumulyatorla işləyir.

Tərəfimizdə hazırlanan günəş paneli əlavə olaraq həmin akkumulyatora qoşulur. Şəkildə akkumulyator qurğunun içərisinə, qapağı isə qurğunun yanında təsvir olunmuşdur. Sınaq üçün NOKİA-BM 10 telefonundan istifadə olunmuşdur. Sınaq zamanı akkumulyator tam boşaldılmış və ona paralel olaraq günəş batareyası qoşulmuşdur. Günəş energisi ilə panel akkumulyatoru 25 dəqiqə ərzində tam doldurmuşdur. Yeni PB həm akkumulyatrla, həm də ayrılıqda günəş paneli ilə işləyə bilir. Əgər elektrik mənbəyi olmayan yerdə olsaq, günəş enerjisi hesabına mobil telefonlar işləyə bilər.

Yeni PB-da Çin istehsalı olan PB-ın qapağı kəsilərək günəş panelini orada yerləşdirmişik (şək. 3).

Şəkil 3 – Günəş elementli yeni PowerBank
Figure 3 – New PowerBank with solar cell

Məlumdur ki, istehlakçılar çox vaxt mobil telefonlarını doldurmaq üçün axşamdan səhərəcən elektrik şəbəkəsidə qoşulmuş vəziyyətdə saxlayırlar. Nəticədə telefonların akkumulyator batareyaları əlavə enerji toplayaraq qızır, quruyur, şişir və telefon sertifikatlaşmamışdırsa hətta partlaya da biər. Bu isə təkcə te-

lefonların xarab olmasına yox, yanğınlara və müxtəlif bəbəxt hadisələrə səbəb ola bilər. Ümumiyyətlə, telefonların və smartfonların partlama səbəbləri müxtəlifdir [3-7].

Azad istehlakçılar Birliyinin apardığı tədqiqatlar göstərir ki, bəzi telefonlar sertifikatlaşmadan keçməyirlər və ona görə də həmin telefonların təhlükəsizliyi təmin olunmayıb.

Nazirlər kabinetinin 1 yanvar 1994-cü il tarixli 343 saylı qərarı dərc olunmuşdur. Bu qərara əsasən telefonlar və smartfonlar məcburi olaraq sertifikatlaşdırılmalıdırlar. Qərara əsasən, telefon ölkənin əmtəə bazarına daxil olmamışdan əvvəl yoxlamadan keçməlidir. Ona görə də istər telefon, istərsə də akkumulyator batareyasını alarkən orjinalını almaq lazımdır. Telefondan istifadə edərkən uzun müddət fasiləsiz danışmaq olmaz. Telefon şəbəkədə dolan zaman da onunla danışmaq olmaz, yalnız telefon dolduqdan sonra şəbəkədən ayırıb sonra danışmaq olar. Telefonun doldurulması vaxtı yalnız onun akkumulyator batareyasının tutumundan, neçə amper-saat olmasından asılıdır. Ümumiyyətlə telefonları dolduran zaman onları 2 saatdan artıq dövrəyə qoşulmuş vəziyyətdə saxlamaq olmaz, əks halda onların ömrü qısalır.

Nəticə

Palladium silisid əsasında alınmış günəş panelini ənənəvi PowerBanka əlavə edərək, yeni növ PowerBank (YPB) alınmışdır. YPB həm Günəş elementləri, həm də akkumulyator əsasında işləyir. YPB günəş enerjisini həm toplayır, həm də PowerBankın akkumulyatorunu doldurur. Ona görə də YPB elektrik şəbəkəsi olmayan yerlərdə də işləyə bilir.

Maraqlar münaqişəsi

Müəlliflər bu məqalədə araşdırılması tələb olunan maraqlar münaqişəsinin olmadığını qeyd edirlər.

REFERENCES

1. **Kərimov Ə.A., Quluzadə B.Ə., Həsənov R.R.** Pd-Si strukturların alınma texnologiyası və fotoelektrik xassələri. *Fizika,* 2012, XV, №4, s.35-37. *(in Azerbaijani)*

2. Cavadov N.H., Əliyev B.H., Kazımov N.F., Qələndərov Q.A. Nanomaterialların, nanogübrələrin alınması və kənd təsərrüfatı bitkilərinə təsirinin tədqiqi. *Azərbaycan Mühəndislik Akademiyasının Xəbərləri,* 2021, cild 13, №3, s.106-112 *(in Azerbaijani)*

3.https:// www.tamindir.com

4. https:// www.sektorumdergisi.com

5. https://gencaile.az

6. https:// news.milli.az

7. https://hafta.az

Awareness and Employment Impact Analysis in Cyber Security

G.A. Abdiyeva-Aliyeva

Institute of Control Systems of Azerbaijan National Academy of Sciences/Bakhtiyar Vahabzadeh street, 68, Baku, Azerbaijan

For correspondence:
Abdiyeva-Aliyeva Gunay / e-mail: gunay.abdiyeva@isi.az

Abstract

The recent cyber wars and their consequences in the world, the available statistical data, lay the foundation for regular awareness raising in the field of cyber security. At the same time, in order to prevent incidents that occur, it should be one of the priority issues for specialists to simulate work impact analysis scenarios. The article gives is to explore the importance of raising awareness of cyber security threats and attacks, as well as the current challenges and solutions.

Keywords: UEBA, Dar Vidar, Trickbot, Nit Ramnit, CVE, xHelper.

DOI 10.52171/2076-0515_2023_15_02_74_83

Received *18.05.2022*
Revised *19.06.2023*
Accepted *21.06.2023*

For citation:
Abdiyeva-Aliyeva G.A.
[Awareness and employment impact analysis in cyber security]
Herald of the Azerbaijan Engineering Academy, 2023, vol. 15, no. 2, pp. 74-83 *(in Azerbaijani)*

Kiber təhlükəsizlikdə məlumatlılıq və işə təsir analizi

G.Ə. Əbdiyeva-Əliyeva

Azərbaycan Milli Elmlər Akademkiyasının İdarəetmə Sistemləri İnstitutu (Bəxtiyar Vahabzadə küçəsi, 68, Bakı, Azərbaycan)

Yazışma üçün:
Əbdiyeva-Əliyeva Günay / e-mail: gunay.abdiyeva@isi.az

Xülasə

Son dövrdə dünyada baş verən kibermüharibələr və onların nəticələri, mövcud statistik məlumatlar kibertəhlükəsizlik sahəsində mütəmadi məlumatlılığın artırılmasına zəmin yaradır. Eyni zamanda, baş verən insidentlərin qarşısının alınması məqsədilə mütəxəssislərin işə təsir analizi ssenariləri üzərində simmulyasiya etməsi prioritet məsələlərdən biri olmalıdır. Məqalədə, kibertəhlükəsizlik təhdidləri və hücumlarına qarşı məlumatlılığın artırılmasının əhəmiyyəti, eyni zamanda mövcud problemlər və onların həlli yolları göstərilmişdir.

Açar sözlər: UEBA, Dar Vidar, Trickbot, Nit Ramnit, CVE, xHelper.

DOI 10.52171/2076-0515_2023_15_02_74_83

УДК 004.056

Осведомленность и анализ воздействия на занятость в области кибербезопасности

Г.А. Абдиева-Алиева

Институт Систем Управления Национальной Академии Наук Азербайджана (ул. Бахтияр Вагабзаде, 68, Баку, Азербайджан)

Для переписки:
Абдиева-Алиева Гюнай / e-mail: gunay.abdiyeva@isi.az

Аннотация

Недавние кибервойны и их последствия в мире, доступные статистические данные закладывают основу для регулярного повышения осведомленности в области кибербезопасности. В то же время для предотвращения возникновения инцидентов одним из приоритетных вопросов для специалистов должно быть моделирование сценариев анализа воздействия на работу. Показана важность повышения осведомленности об угрозах и атаках кибербезопасности, а также о текущих проблемах и решениях.

Ключевые слова: UEBA, Dar Vidar, Trickbot, Nit Ramnit, CVE, xHelper.

Giriş

İnsanlar kiber təhlükəsizlik və işə təsir analizi haqqında düşündükdə, bir şirkətin təhlükəsizlik cəhətdən pisniyyətli şəxslər tərəfindən nəzarəti və idarəetməni öz səlahiyyətlərinə keçirmə riskinin qiymətləndirilməsi kimi qəbul edirlər. İşin davamlılığı üçün qarşıya qoyulan məqsəd olduqda, risklər də dəyişir.

Xüsusilə nəzərə alınacaq məqamlar aşağıda təqdim olunmuşdur: Sertifikatlaşdırılmış İnformasiya Sistemləri Auditorlarının (CISA) mövcudluğu; İşçi heyətin uzaq məsafədən qoşulmalar üçün simsiz təhlükəsizliyi; Virtual Gizli Şəbəkələrin (VPN) istifadəsi; Şifrələmə proseslərinin tətbiqi; Çoxfaktorlu identifikasiya ilə aplikasiya istifadəçilərin girişini idarə etmək; İstifadəçi və aktiv davranışın monitorinqi (UEBA); Ən az imtiyaz prinsipinə əsasən istifadəçi girişinin məhdudlaşdırılması [1].

İstifadəçi giriş proqramının idarə edilməsi. Təşkilat, istifadəçi girişini idarə etməkdə gecikirsə, artıq buna diqqət yetirməyin vaxtıdır. VPN istifadəçilərinin şəbəkə üzərində saytlara giriş-çıxışını nəzarətə almaq mümkündür. Lakin şəbəkə üzərində apardıqları bütün əməliyyatlara fiziki olaraq nəzarət etmək çətindir. Həddən artıq verilmiş səlahiyyətlə işçilər məlumatları səhvən təhlükə altına ata bilərlər.

İstifadəçi girişinin idarə edilməsi baxımından aşağıdakılardan məlumatlı olmaq vacibdir: İstifadəçilərin rol anlayışları; Şifrə siyasəti; İT ekosistemində müxtəlif şəbəkələrə, tətbiqlərə və bulud xidmətlərinə girişin məhdudlaşdırılması; Giriş siyasətinə daxilolma vaxtı və coğrafi yer kimi kontekstlərin daxil edilməsi; Məsafədən qoşulmalar zamanı super istifadəçilərə girişin məhdudlaşdırılması [2]; UEBA-nın Təhlükəsizlik Planına daxil edilməsi.

İstifadəçinin Fərdi Davranışının Təhlili (UEBA). Aktiv olaraq fəaliyyət göstərən bütün şirkətlər təhdid və hücumlara məruz qalırlar. Bu təhdidlər və hücumlar iki hissəyə bölünür: daxili və xarici. Hakerlər tez-tez mənfəət əldə etmək üçün qurumlarda fərdi, eyni zamanda maliyyə məlumatlarına diqqət yetirirlər.

Təhdidlərin qarşısını almaq üçün atılacaq addımlar. Bu tip hücumların olma ehtimalının proqnozlaşdırılmasına ehtiyac var. Hazırda istifadəçi davranışını izləmək və təhlil etmək üçün həll yolları lazımdır. Bu sistem, istifadəçinin davranışı haqqında ümumi məlumat toplamağa köməklik edir. Bu məlumatlar, normal və ya şübhəli davranışları aşkar edir, eyni zamanda, əldə edilən məlumatlarla ətrafdakı təhlükəni asanlıqla müəyyənləşdirir və lazımi qabaqlayıcı tədbirləri vaxtında alır.

UEBA sistemi daxili təhdidləri, hədəfli hücumları, maliyyə saxtakarlığını aşkar etmək üçün istifadə olunur. UEBA həlləri insanın davranışları, cihazları, tətbiqləri, serverləri, məlumatları və ya bütün qurumların IP adresinə nəzər salaraq bütün potensial təhdid edilən anormal halları aşkar etməyə imkan verən maşın öyrənmə alqoritmləri və statistik təhlillər tətbiq edir. UEBA sistemi adətən fərq edilməyəcək sui-istifadənin və zərərli davranışın aşkarlanmasını təmin edir.

UEBA bütün istifadəçiləri və prosesləri izləyir və bu hadisələri özündə cəmləyir [3].

UEBA-nın işləmə mexanizmi. İstənilən istifadəçinin məlumatlarını oğurlamaq asan ola bilər. Ancaq şəbəkədə o insan kimi davranmaq daha çətindir. Bu səbəbdən, pisniyyətli haker fərqli bir şəkildə hərəkət edərkən UEBA həyəcan verəcəkdir.

UEBA proqram təminatı, yeni tətbiqetmələrin (aplikasiya) başlanması, şəbəkədəki

fəaliyyətlər və fayl çıxışı kimi istifadəçi hərəkətlərinə diqqət yetirir. Faylın nə vaxt əldə edildiyini, kimin daxil olduğunu və hansı fəaliyyətdə olduğunu yoxlayır. Texnologiya, şübhəli davranış nümunələri götürərək pisniyyətli hakeri tanımağa kömək edir. Hücumu dayandırmaq üçün heç bir tədbir görməz, əvəzində hücumu aşkar edər və təhdidin vurduğu ziyanı minimuma endirər.

Kiber təhlükəsizlik və gizlilik perspektivləri baxımından bir çox qurumda bu tip yoxlamaların bəzi formaları yerində ola bilər. Bununla birlikdə daha uzaq məsafədə işləyənlərlə yoxlamaların əlçatanlığı ən az imtiyaz prinsipinə görə uyğun şəkildə hüdudlanıb-hüdudlanmadığını təyin etmək lazımdır. Məsələn, uzunmüddətli işləyənlər qurum daxilindən ayrılarkən (və ya işdən çıxarkən) keçmiş səlahiyyətlərə sahib ola bilərlər. Bu, bütün səlahiyyət haqlarını nəzərdən keçirməyə və lazımsız sistem imtiyazlarının aradan qaldırılmasına dair göstəricidir. Qurumlar bunun ən yaxşı qabaqlayıcı tədbir olduğunu bilmələrinə baxmayaraq, çox insan bunu mütəmadi olaraq nəzərdən keçirmirlər. Başqa bir çətinlik də idarəetmə panelinə tətbiq olunan qoşulmaları gözdən keçirmək ola bilər. Bir çox qurum işçiləri yerli korporativ Wi-Fi şəbəkəsindən kritik əhəmiyyətə sahib proqramları əldə etməkdən uzaq tutmağa çalışarkən adətən bu siyasətlər həyata keçirilən müddətdə əksik icra olunur. Virusun yayıldığı müddətdə uzaq məsafədən xidmət göstərənlər bu müddət ərzində karantinə alınmaya bilər, bu da bütün xarici qoşulmaları nəzarət saxlamağın əhəmiyyətini göstərir. Sonda isə fərdi məlumatların ələ keçirilməsi daha da böyük diqqət çəkən məqamlardan birdir. İşçilərin uzaqdan qoşulduqları Wi-Fi təhlükəsiz deyilsə qurumdaxili sistemlər SQL və saytlararası komanda hücumları (XSS) üçün daha böyük bir risk daşıyır. Bütün bunlar uzaq məsafədən qoşulan bir işçinin qurumdaxili bütün İT sistemlərini və ekosistemi məlumatlarının hər növ risklə üz-üzə qalması diqqət mərkəzində olmasının vacibliyini göstərir.

Tamamlanmayan məlumatların təhlükəsizliyinin təmin etmək üçün strategiyanın işlənməsi. Uzaq məsafədən fəaliyətdə istifadə olunan proqram təminatını xüsusilə nəzərdən keçirmək gizlilik və təhlükəsizlik risklərini azaltmaq üçün görüləcək ilkin tədbirlərdəndir.

İşin davamlılığı planını (BCP) hazırlayarkən aşağıdakılara nəzər yetirmək lazımdır: qorunması lazım olan həssas məlumat növləri; həssas olmayan məlumatları özündə saxlayan, ötürən və cəmləyən ünvanlar; e-poçt və məlumatların yüksək keyfiyyətli şifrələməsi; bulud xidmətləri "link ilə paylaşmaq" parametrləri; veb-sayt məlumatlarının idarəedilməsi; birbaşa mesajlaşma tətbiqi proqram məlumatlarının idarəedilməsi.

Uzaq məsafədən fəaliyyət göstərən işçi ilə iş yerində işləyən işçi arasında adətən birbaşa mesajlaşma və e-poçt fəaliyyəti nəzərdən qaçan iki əsas risk mənbəyidir. İki fərqli mühitdə işləyən işçi arasında sürətli şəkildə sual-cavab mexanizmi ilə iş fəaliyyəti keyfiyyətli formada davam etsə də, bu tip fəaliyyət uzaq məsafədən işləyənlər üçün fərqli effekt verəcəkdir. Birbaşa mesajlaşma və e-poçt tətbiqi proqramlarının yenilənməsi zamanı saxlanılan, ötürülən və daxil olan məlumatlara necə təsir edəcəyini nəzərdən keçirmək lazımdır.

Çoxlu sayda istifadəçinin uzaq məsafədən işləməsini nəzərə alaraq, işin davamlılığı və uzaqdan planlaşdırıması üçün aşağıdakı addımların yerinə yetirilməsi lazımdır: işçi cihazları üçün təhlükəsizlik yeniləmələrini tətbiq etmək; video-konfrans proqramlarını yeniləmək; əlavə işçi qüvvəsi tələb edən müraciətlərə baxmaq.

E-poçtlarda və mesajlarda olan məlumatları izləməkdən əlavə, qurumlar bu tətbiqi proqramların nə qədər tez-tez yenilənmələrini də nəzərə almalıdırlar. Bir mesajlaşma platforması işə başlamazdan əvvəl yüksək riskli bir tətbiq proqramı hesab edilməsə də, işçilər ofisdən kənarda olduqda kritik bir tətbiq halına gələ bilər.

Bununla yanaşı, təşkilatlara video-konfrans tətbiqetmələrini izləmək imkanı verilməlidir. Uzaqdan işləyənlər WebEx, Skype və ya Google Hangouts, Teams, Zoom kimi texnologiyalardan istifadə etdikləri üçün bu tətbiqlərin təhlükəsizliyi kibertəhlükəsizlik riskini azaltmaq üçün zəruri hala gəlir.

Fişinq hücumları və əks tədbirlər. Bir linki klikləməyi və ya bir əlavə açmağı tələb edən bir e-poçt və ya qısa mesaj alsanız, özünüzə bu sualı verin: "Şirkətdə hesabım var və ya mənimlə əlaqə quran şəxsi tanıyırammı?" Cavab "Xeyr" olarsa, bu bir fırıldaqçı ola bilər. İşi dayandırın və fişinq fırıldaqçılığını axtarmaq üçün təlimatları nəzərdən keçirin. Daha sonra fişinqə dair şübhə olarsa, mesajı bildirin və həmin mesaji silin. Cavab "Bəli" olarsa, bildiyiniz bir telefon nömrəsi və ya veb saytdan istifadə edərək şirkətlə əlaqə saxlayın. Cihazınıza e-poçtdakı mətn mesajı deyil, əlavələr və bağlantılar (linkə keçid) zərərli proqram təminatını quraşdıra bilər.

Zərərli proqram - cihaza bulaşarsa, müxtəlif növ zərərli dəyişikliklər görməyə davam etməyimiz ehtimal olunur. Bəziləri uzaqdan məsafədən fəaliyyət göstərmək üçün müxtəlif növ proqramlar təklif edən, iş elanı veb saytlarına yönlənən istifadəçiləri hədəfləmiş və s. kimi proqramları təqlid edər.

Məsələnin həlli

Yuxarıda qeyd olunan məsələlərin həlli olaraq daxil olan zərəli keçidlər və ya əlavələrə dair məlumatlı olmaqla yanaşı kiber təhlükəsizlik vasitələrindən də istifadə oluna bilər.

Gəlir cinayətinə çevrilmə. İşsizliyin artması, bəzi insanlara, maliyyə qurumlarına qarşı kiberhücumlar zamanı bankomatlardan oğurlanmış pul vəsaitlərini çıxaran nağd pullar kimi cinayətkar qruplar üçün işləmək kimi yüksək maaşlı, yüksək riskli iş axtarmağa səbəb ola bilər.

İşçiləri və sistemləri qorumaq. İşçinin uzaq məsafədən İT idarəetmə sistemləri qurma qabiliyyətinin, həm təhlükəsiz, həm də effektiv olmasına baxmayaraq, boşluqların və problemlərin yaranacağı qaçılmazdır. Müsbət hal olardı ki, təşkilatlar, öncədən fövqəladə vəziyyətə uyğun olaraq məsafədən fəaliyyət ilə bağlı tədbirlər planını (DRP) hazırlamış olsun. Burada qarşımıza əsas İT avadanlıqları və proqram təminatının mövcudluğu və digər problemlər çıxır.

Təşkilatların şəbəkə sərhədləri və buna görə hücum səthi əvvəlkinə nisbətən daha böyükdür. Artıq təşkilatlarda bir çox məlumatlar öz hüdudlarından kənarda əldə oluna bildiyinə görə bu məlumatlara yönəlmiş hücumların riski yüksək səviyyədədir. Bu məqamda işçilər, xüsusilə sosial mühəndislik hücumlarına və oxşar fırıldaqçılıqlara qarşı daha həssas olmalıdır [4].

Ev şəbəkəsi. İstifadəçinin ev şəraitində bant genişliyi yüksək olan xəttdən istifadə etməsi, zəif Wi-Fi təhlükəsizliyi, sızılabilən paylaşma nöqtələri və başqa köhnə protokollardan istifadə edərək bu tip korporativ şəbəkələrə qoşularaq məlumatlardan istifadə etməsi də əlavə olaraq bu məlumatları riskə atmış olur. Bu səbəbdən də tövsiyyə olunan köhnə metod LAN üzərindən sabit şəbəkə ilə VPN istifadə edərək korporativ şəbəkəyə qoşulmaqdan ibarətdir.

Firewall, VPN və təhlükəsizlik siyasəti. Şəxsiyyət və Giriş İdarəetməsi (IAM) kimi etibarlı bir əlaqə də vacibdir. Əlbəttə ki, bütün işçilər yalnız VPN ilə əlaqə qurmalıdırlar. Ancaq bunun mümkün olmayacağı vəziyyətləri də planlaşdırmaq lazımdır. Məsələn, problemin pik həddi olaraq, zədələnmiş və ya sıradan çıxmış aparat təminatını düşünmək olar. Bu zaman, bir çox təşkilat işçiləri uzaq məsafədən fəaliyyət üçün öz cihazlarından istifadə etmək zərurəti ilə üzləşirlər. Qurumların Mobil Cihaz İdarəetmə (MDM) siyasətindən və həssas istifadəçi, virtual maşın və digər texnologiyaların mövcudluğundan asılı olaraq, bu proqramlar həm üstünlük, həm də riskləri meydana çıxarır. İstismar müddətini bitirmiş, nasaz və lisenziyasız proqram və aparat təminatı təhlükəsizliyi təmin etmək əvəzinə işi daha da mürəkkəbləşdirir.

Zəng edənin şəxsiyyəti. Son zamanlar saxta zəng mərkəzləri tərəfindən gələn zənglərdə dələduzluq halları çoxalıb. Bu tip fövqəladə vəziyyətlərdə həmin fırıldaqçılar üçün yaranan ən uyğun şərait əhalinin stress vəziyyətində belə zənglərə həssas olmasından ibarətdir. Xüsusilə korporativ şəbəkəyə uzaq məsafədən qoşulma zamanı baş verən xətalarda və qoşulmanın mümkün olmaması ilə bağlı gələn zənglərdə qarşı tərəfin kimliyinin təyin olunması çox önəmlidir. Bu tip risklər narahatçılıqlara səbəb olur. Etibarlı rabitə kanallarında fəaliyyət uğursuz və ya nasaz olarsa, təhlükəsizlik işçilərinin nəzarəti altında olmayan kənar şəxslərdən dəstək almaq istifadəçilərə cəzbedici görünə bilər. Bu identifikasiya ilə bağlı ikinci məsələni ortaya çıxarır. Bu problemlərdən bəziləri hər iş stansiyasında (server) monitorinq, telemetriya və aşkaretmə vasitələrindən istifadə edərək problemin başlanğıc nöqtəsində bərpa edilə bilər. Ekspertiza və müdaxilə vasitələrinin yaradılması ilə uzaq məsafədən araşdırıla və lazım gəldikdə cihazları izolə etmək mümkündür.

